# “Azad Bakı, təmiz Bakı, can Bakı”

*1918-ci ilin 15 sentyabrı Bakının erməni-bolşevik işğalından azad edildiyi gündür*



**...Paytaxtın bir vaxtlar “Dağüstü park” adlanan yerində – Şəhidlər xiyabanının qonşuluğunda Nuru Paşanın komandanlığı ilə 1918-ci ildə Bakını işğaldan qurtarmağa gələn Türk–Qafqaz ordusunun şərəfinə ucaldılmış “Türk Şəhidliyi” abidəsinin qarşısındayam. Bakı uğrunda döyüşlərdə canlarından keçmiş və Çənbərəkənd qəbiristanlığında dəfn edilmiş türk əsgərlərinin ruhu qarşısında baş əyirəm. Həmin abidə düz 25 il əvvəl yaradılıb. Xalq şairi Nəriman Həsənzadənin məşhur misralarını pıçıldayıram:**

*(ardı 6-cı səhifədə)*

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 201 (30605) 15 sentyabr 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycan paytaxtının park və yaşıllıqları böyüyür, gözəlləşir

## Prezident İlham Əliyev “Xaqani” bağında və ətrafda yaradılan şəraitlə tanış olub



Səhifə ⇨ 2

## Hayların tərs marşrutu: günbatandan gündoğana

*Ermənistana həmin ünvanları tanıdan və onu oralara göndərən var...*



**Avropa İttifaqı və onun ətrafında cəmləşmiş erməni təəssübkeşi ölkələr və təşkilatlar “düşərgəsinin” diktəsi ilə maliyyə və silah-sursat axtarışına çıxan rəsmi İrəvanın sorağı bu dəfə Uzaq Şərqdən – Yaponiyadan gəldi. Yaqin Hayastan başbilənləri Qərbdən gözlədikləri dəstəyi görmədiklərindəndir ki, indi də üzlərini gündoğan tərəfə – Yaponiyaya çeviriblər.**

*(ardı 4-cü səhifədə)*

## Okampo həqiqət və ədalət hissini itirib

**Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) sabiq (2003-2012) prokuroru Luis Moreno Okampo Ermənistana səfər edib. Səfər ABŞ-da fəaliyyət göstərən Həqiqət və Ədalət Mərkəzinin və bütün ermənilərin katolikosu II Qareginin dəvəti ilə baş tutub. Sentyabrın 13-də İrəvandakı “İBİS” hotelində Okampo ilə açıq görüş keçirilib. Görüş “Erməni məhbuslara azadlıq” təşəbbüsü tərəfindən təşkil olunub.**

*(ardı 4-cü səhifədə)*



# Avropa Şurasının düşünmək üçün 3 ay vaxtı var




**“Korrupsion Seele” (korrupsiya ruhu) ləqəbi ilə tanınan Almaniyanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri, ermənipərəst Frank Şvabenin son günlərdəki “aktivliyi” fonunda bir məqamın vurğulanmasına ehtiyac var.**

Əvvəla ondan başlayaq ki, Prezident İlham Əliyevin İtaliyaya səfəri Avropada böyük rezonans doğurdu. “Köhnə qitə”nin mediası dövlətimizin başçısının çıxışlarına, görüşlərinə geniş yer verdi. Görünür, bu, xaricdəki bəzi dairələrin kürklərinə birə saldı. İkinci bir amil kimi bu ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransı (COP29) üzərində dayanılmalıdır. Mötəbər tədbirlər öncəsi anti-Azərbaycan ritorikasının güclənməsinə də öyrəncəliyik. Vurğulamaq istədiyimiz məqam isə sırf Avropa Şurası müstəvisindədir. Daha doğrusu, AŞPA müstəvisində.

*(ardı 3-cü səhifədə)*

## Pirallahı “Sənaye parkı adası”na çevrilir




Səhifə ⇨ 7

## “Yaşıl” enerjiyə keçid uğurla davam edir



Səhifə ⇨ 8

## Ölkə növbəti dərs ilini yeni arzu və tələblərlə qarşılayır



**Yeni dərs ilinin başlamasına bir gün qalır. Sentyabrın 16-da məktəblər qapılarını şagirdlərin üzünə açacaq. Bəs, ümumtəhsil müəssisələrinin yeni tədris ilinə hazırlığı necə gedir?**

Sentyabrın 10-da Bakı şəhəri təhsil işçilərinin sentyabr konfransı keçirilib. Konfransda nazir Emin Əmrullayev, ali məktəb rektorları, millət vəkilləri, Elm və Təhsil Nazirliyi yanında yaradılmış müvafiq qurumların əməkdaşları, ictimaiyyət nümayəndələri, məktəb direktorları, məktəbəqədər və məktəbdənkənar təhsil müəssisələrinin rəhbərləri, müəllimlər və KİV nümayəndələri iştirak ediblər. Nazir Emin Əmrullayev ötən tədris ilində əldə olunan nailiyyətlərdən, aparılan təhsil islahatlarından, mövcud problemlər və onların həlli üçün atılan addımlardan söz açıb, perspektivdə nəzərdə tutulan məsələlərdən, yeni tədris ilinin əsas hədəflərindən bəhs edib.

*(ardı 9-cu səhifədə)*

# Prezident İlham Əliyev "Xaqani" bağında və ətrafda yaradılan şəraitlə tanış olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Bakının Səbail rayonunda yerləşən "Xaqani" bağında və ətraf ərazilərdə aparılmış abadlıq-yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.**

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına bağda həyata keçirilən abadlıq-yenidənqurma işləri barədə məlumat verdi.

Bildirildi ki, "Xaqani" bağının mövcud ərazisi genişləndirilib, istirahət guşəsinin ətrafındakı Rəsul Rza, Qoqol və Xaqani küçələrində avtomobil yolları ləğv edilərək piyadaların istifadəsinə verilib. Ümumi ərazisi 1,4 hektar olan bağın ərazisində yaşıllaşdırma, işıqlandırma işləri görülüb, müasir oturacaqlar quraşdırılıb, uşaq əyləncə zonası yaradılıb və ətrafda olan yaşayış binalarında təmir-bərpa işləri aparılıb.

Qeyd edək ki, bu, dövlətimizin başçısının Bakı şəhərində parkların, xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı tapşırıqlarına əsasən abadlaşdırılan növbəti istirahət guşələrindən biridir. Şəhərin mərkəzində yerləşən bağda sakinlərin istirahəti üçün qısa müddətdə gözəl şərait yaradılıb.



Bu bağın Formula 1 Azərbaycan Qran-Prisinin keçirildiyi bir zamanda və Bakının ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində istifadəyə verilməsi ölkəmizə gələcək turistlərin istirahətinin səmərəli təşkilinə də böyük töhfə olacaq.

Xatırladaq ki, paytaxtımızda ən müasir parklar və yeni yaşıllıq zolaqları salınır, Bakının qədim tarixi memarlıq nümunələri bərpa edilir və müasir binalar tikilib istifadəyə verilir. Bu işlərin hamısı şəhərə daha çox gözəllik və kolorit verir, məhz bunun sayəsində Azərbaycan paytaxtı insanların həyatı və asudə vaxt keçirməsi üçün rahat məkana çevrilir. Yeni parkların salınması və mövcud olanların yenidən qurulması, "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində tədbirlər də ətraf mühitin sağlamlaşdırılması işinə mühüm töhfə verir.

*AZƏRTAC*

# Fatma Səttarovanın ailəsinə və yaxınlarına

**Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, İkinci Dünya müharibəsi iştirakçısı, ölkəmizin ictimai həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə "İstiqlal" ordeni ilə təltif edilmiş Fatma Səttarovanın vəfatı xəbəri bizi son dərəcə kədərləndirdi.**

Fatma Səttarova Vətənə sədaqətlə xidmət edərək, gənclərə və gələcək nəsillərə örnək olan nümunəvi həyat yolu keçmişdir.

Bu ağır anlarda dərdinizi bölüşür, ailənizin bütün üzvlərinə öz adımdan və Mehriban xanımın adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 sentyabr 2024-cü il**

# Baş nazir Türkiyə Ali Məhkəməsinin sədrini qəbul edib

**Sentyabrın 14-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türkiyə Respublikası Ali Məhkəməsinin sədri Ömər Kərkəzin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüş zamanı Azərbaycan ilə Türkiyə arasında əlaqələrin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunub, prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi və birgə səyləri ilə dövlətlərarası münasibətlərin strateji tərəfdaşlığın və müttəfiqliyin ən yüksək zirvəsinə çatdığı vurğulanıb.

İki ölkənin məhkəmə-hüquq sistemləri arasında əməkdaşlığın səviyyəsi yüksək qiymətləndirilib. Bu əməkdaşlığın həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində davam etdirilməsinin vacibliyi vurğulanıb. Bu baxımdan ötən ilin oktyabrında Şuşada Türk Dövlətləri Ali Məhkəmələrinin Konfransının təsis edilməsinin əhəmiyyəti qeyd olunub.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında müxtəlif istiqamətlərdə, o cümlədən məhkəmə-hüquq sahəsində əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri İnam Kərimov görüşdə iştirak edib.

*XQ*

# Baş nazirin müavininin Beynəlxalq Olimpiya Komitəsinin üzvü ilə görüşü



**Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev sentyabrın 14-də Beynəlxalq Olimpiya Komitəsinin üzvü, Dünya Badminton Federasiyasının vitse-prezidenti, Tailand Badminton Assosiasiyasının prezidenti Hunyinq Patama Lisvadtrakul ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Azərbaycanda idmanın inkişafı istiqamətində həyata keçirilən ardıcıl tədbirlər barədə söhbət açılıb.

İdmançıların dövlətimizin başçısının yüksək diqqət və qayğısı ilə əhatə olunduğu, ölkədə müasir idman infrastrukturunun yaradıldığı bildirilərək, bütün bunların idmançılarımızın beynəlxalq turnirlərdə yüksək nəticələr əldə etmələrində müstəsna rol oynadığı diqqətə çatdırılıb.

Dünyada aparıcı idman ölkələrindən biri kimi tanınan Azərbaycanın müxtəlif idman növlərini əhatə edən nüfuzlu beynəlxalq yarışlara və irimiqyaslı tədbirlərə nümunəvi şəkildə ev sahibliyi etdiyi bildirilib. Bakıda növbəti dəfə keçirilən Formula 1 Azərbaycan Qran-Prisinin yüksək səviyyədə təşkil edilməsində ölkəmizin uğurlu təcrübəsi təqdir olunub.

Azərbaycan Badminton Federasiyası və Dünya Badminton Federasiyası arasında əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə edilib.

Eyni zamanda, Azərbaycan Badminton Federasiyası ilə Tailand Badminton Assosiasiyası arasında əlaqələrin qurulması imkanları ilə bağlı fikir mübadiləsi aparılıb.

*XQ*

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası



**Sentyabrın 14-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**

Əvvəlcə Komissiyanın sentyabrın 12-də keçirilən iclasının protokolu təsdiq edilib.

Sonra 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar ərizəçilərin, maraqlı subyektlərin və media mənsublarının da iştirakı ilə Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb. Komissiya üzvlərinin geniş müzakirəsinin ardınca, vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin edilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada, operativ şəkildə baxılan müraciətlərlə bağlı müvafiq qərarlar qəbul olunub.

Daxil olan müraciətlərin, müxtəlif mənbələrdən əldə edilən məlumatların ərizəçilərin özlərinin də bilavasitə iştirakı ilə tamamilə şəffaf, hərtərəfli və obyektiv araşdırılmasının nəticəsi olaraq, seçicilərin iradəsinin müəyyənləşdirilməsinin qeyri-mümkünlüyünə və seçki qanunvericiliyinə uyğun olmayan digər hallara görə 42 saylı Sumqayıt birinci seçki dairəsinin 27 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilib.

Media nümayəndələri tərəfindən geniş işıqlandırılan iclasda, həmçinin cari məsələlərə də baxılıb.

*XQ*

# Müdafiə nazirinin müavini 11-ci Pekin Syanşan Forumunda

**Çin Xalq Respublikasının paytaxtında 11-ci Pekin Syanşan Forumu keçirilib.**

Müdafiə nazirinin müavini, baş direktor Aqil Qurbanovun rəhbərliyi ilə nümayəndə heyəti forumda iştirak məqsədilə Çinə işgüzar səfər edib.

Əvvəlcə ulu öndər Heydər Əliyevin Azərbaycanın Çindəki səfirliyindəki büstü ziyarət olunub, önünə gül dəstələri düzülərək xatirəsi dərin hörmət və ehtiramla anılıb.

Sonra Azərbaycan nümayəndə heyəti 11-ci Pekin Syanşan Forumunda iştirak edib.

A.Qurbanov dünyanın 100-dən çox ölkəsinin nazir və digər səviyyədə rəsmiləri, region və beynəlxalq təşkilatlardan rəsmi nümayəndə heyətlərinin iştirak etdiyi forum zamanı Çin Xalq Respublikasının milli müdafiə naziri admiral Don Cun ilə görüşüb. Baş direktor foruma dəvətə görə minnətdarlığını bildirib.



Çinə işgüzar səfər çərçivəsində baş direktor, həmçinin Mərkəzi Hərbi Şuranın Silah, Hərbi Texnika və Texnologiya üzrə Əməkdaşlıq İdarəsinin rəisi və Dövlət Müdafiə Sənayesi Kompleksinə daxil olan bir sıra şirkətlərin nümayəndələri ilə görüş keçirib. Görüş zamanı iki ölkə arasında hərbi-texniki əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

# Orduda əsgər ölümü

***Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin hərbi qulluqçusu, əsgər Bağırov Nurbala Asif oğlunun odlu silahdan açılmış atəş nəticəsində ölməsi barədə Şəmkir Hərbi Prokurorluğuna məlumat daxil olub.***

Bu barədə Hərbi Prokurorluğun mətbuat xidmətindən məlumat verilib.

Daxil olmuş məlumat əsasında Şəmkir Hərbi Prokurorluğunun və Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Kriminalistika və İnformasiya Texnologiyaları idarəsinin əməkdaşları hadisə yerinə və meyitə baxış keçirib, iş üçün əhəmiyyət kəsb edən predmetləri maddi sübut kimi götürüb və digər hərəkətləri icra ediblər.

Fakt üzrə Şəmkir Hərbi Prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 120.1-ci (Qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanılaraq şahidlər dindirilib, müxtəlif ekspertizalar təyin edilərək icraya yönəldilib və təxirəsalınmaz zəruri istintaq hərəkətləri həyata keçirilib.

Hazırda istintaq davam etdirilir və qanunvericiliyin tələblərinə uyğun olaraq bütün tədbirlərin görülməsi, o cümlədən, hər bir əmələ və fakta hüquqi qiymət verilməsi təmin olunacaq.

*XQ*

# Saxta və gurultulu alqışlar

*Vaşinqton bununla Moskva ilə özünün fərqini göstərməyə çalışır*

**“Blinken Azərbaycanla Ermənistan arasında danışıqlardakı irəliləyişi alqışlayır”. Bu barədə ABŞ Dövlət katibi Antoni Blinkenlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında bu günlərdə baş tutmuş telefon danışığını şərh edən Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Metyu Millerin yazılı açıqlamasında deyilir.**




Artıq xeyli müddətdir ki, Vaşinqtonun Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması, sülh danışıqlarının müsbət sonluğa çatması ilə bağlı açıqlamaları “alqışlardan” o tərəfə keçmir. Ağ Ev xarici diplomatiya idarəsinin timsalında Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması ilə bağlı danışıqlarda əldə etdiyi irəliləyişi alqışlamaqla, xüsusilə sərhədlərin delimitasiyasının tənzimlənməsi haqqında əsasnaməyə dair razılaşmaların vacibliyini önə çəkməklə kifayətlənir.

Elə Dövlət Departamenti sözçüsü M.Millerin jurnalistlər üçün keçirdiyi həftəlik ənənəvi brifinqlərdə bölgə ilə bağlı söylədikləri “Cənubi Qafqazda davamlı və layiqli sülhün bərqərar olmasının vacibliyini təsdiqləyirik” məzmunlu açıqlamalardan uzağa getmir. Oxuculara xatırladaq ki, daha əvvəl Ermənistan hökumətinin yaydığı məlumata görə, A.Blinken və N.Paşinyan ikitərəfli gündəliyi və Ermənistan–Azərbaycan sülh prosesini müzakirə ediblər.

Dövlət katibi ilə baş nazir gündəlikdəki hansı mövzuları, sülh prosesini ləngidən hansı məsələləri müzakirə ediblər? Onlar Cənubi Qafqazda sülhün bərqərar olması istiqamətində irəliləyişə nail olmaqdan ötrü konkret nədən danışıblar? Ümumiyyətlə, bu telefon danışıqlarının mövzusu doğrudanmı bölgənin sülh gündəliyidir, yoxsa tamamilə başqa, bundan tam fərqli motivlərdir?

“ABŞ Dövlət Departamentinin Azərbaycanla Ermənistan arasındakı münasibətlərin normallaşdırılması ilə bağlı danışıqlarda əldə etdiyi irəliləyişi, o cümlədən sərhədlərin delimitasiyasının tənzimlənməsi haqqında Əsasnaməyə dair razılaşmaları alqışlayan yazılı bəyanat yaymasının iki səbəbi var”.

Mövzu ilə bağlı “XQ”yə açıqlamasını bu fikirlərlə başlayan **“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı Elxan Şahinoğlu** ABŞ Dövlət katibi Antoni Blinkenlə Ermənistan baş naziri Nikol Paşinyan arasında baş tutmuş telefon danışığının bəzi təfərrüatlarını şərh edərkən deyib. Politoloq bu qənaətdədir ki, belə bir açıqlama yaymaqla Vaşinqton sülhün dəstəkçisi kimi, Moskva ilə aralarındakı fərqi nümayiş etdirməyə çalışıb: “Birincisi, Vaşinqton bununla bir daha onu göstərib ki, Azərbaycanla Ermənistan arasında “tet-a-tet” dialoqu, vasitəçi olmadan sülh danışıqlarında əldə edilən razılaşmaları dəstəkləyir. İkincisi, Vaşinqton belə bir açıqlama yaymaqla problemin həllinə Kremldən fərqli yanaşdığını göstərməyə çalışıb. Misal üçün, Rusiya Xarici İşlər Nazirliyinin Azərbaycanla Ermənistan arasında əldə edilən razılaşmaları birmənalı dəstəkləyən bəyanat yoxdur. Kremlin eşitdiyimiz yeganə mesajı ondan ibarətdir ki, bu işin içində biz də olmalıyıq. Son vaxtlar Vaşinqtondan oxşar iddiaları eşitmirik”.

Məsələnin maraqlı tərəfi həm də odur ki, Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Metyu Millerin ABŞ Dövlət katibi Antoni Blinkenlə Ermənistan baş naziri Nikol Paşinyan arasında baş tutan telefon danışığından yazılı açıqlaması hadisənin üstündən bir neçə gün keçəndən sonra yayılıb. Ağ Ev Administrasiyası əvvəllər bu “praktikadan” istifadə etmirdi.

Yəni, buradan belə bir məntiqi nəticə hasil olur ki, Ermənistanla Azərbaycan arasında sülhün əldə olunması məsələsi artıq Vaşinqton üçün arxa plana keçib. Seçkiqabağı “qızdırma” vəziyyətində olan ABŞ siyasi isteblişmentinin indiki məqamda Cənubi Qafqazda sülh kimi “xırda məsələlərə” diqqət ayırmağa vaxtı yoxdur. Bu səbəbdən Metyu Millerin “gurultulu alqışlarla” müşayiət olunan açıqlamalarının yazıldığı “sınıq valı” təkrar fırlatmaqla saxta təəssübkeşliyi nümayiş etdirmək daha məqbul variant sayılır.



Azərbaycan xalqı Birləşmiş Ştatların demokratiya və ədalət barədə bəyan etdikləri tezislərin mifdən savayı heç nə olmadığını 1992-ci ildə müstəqilliyini yeni bərpa edən, sivil inkişaf yolunu tutan və işğala məruz qalmış dövlətimizə qarşı “Azadlığı müdafiə aktı”na 907-ci əlavəni qəbul edəndə görüb. O zaman ABŞ-nin ermənipərəst sanksiyalarına öz torpağımızda Xocalı soyqırımını törədən təcavüzkar və cinayətkar Ermənistan deyil, Azərbaycan məruz qalmışdı. Ötən 32 ildə doğrudanmı heç nə dəyişməyib?

***İmran BƏDİRXANLI***
***XQ***

# AŞPA-nın ermənipərəst deputatlarının düşmənçiliyi səngimir

**Azərbaycanın nümayəndə heyəti 2024-cü ilin yanvar ayında Avropa Şurasının Parlament Assambleyasında öz fəaliyyətini dayandırıb. Səbəblərini də çox aydın şəkildə izah ediblər. AŞPA-dan Azərbaycana qarşı ikili standartlara, qərəzli yanaşmalara son verməsi, Ermənistanın əsassız müdafiə edilməsindən əl çəkilməsi tələb edilib. Ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin təmin edilməsi üçün atılan addımlara hörmət göstərməsi istənilib.**

Təəssüf ki, AŞPA fərqli bəhanələr gətirərək, bu tələbləri yerinə yetirməkdən yayınır. Amma Azərbaycanla əlaqələrinin tamamilə üzülməsi ilə də barışmaq istəmir. AŞPA rəsmiləri bir müddət əvvəl parlament seçkilərini müşahidə etmək, indi isə COP29 tədbirlərinə qatılmaq üçün Bakıya gəlmək istəklərini ifadə ediblər. Bu təklifləri qəbul edilməyəndə isə böhtan dolu bəyanatlar səsləndirirlər.

AŞPA-dan səsləndirilən təkliflərə Azərbaycan Prezidenti İlham Əliyevin çox aydın şəkildə cavab verib. Dövlətimizin başçısı sentyabrın 6-da İtaliyada keçirilən Beynəlxalq Çernobbio Forumunda çıxışı zamanı bəzi AŞPA üzvlərinin Azərbaycanda “arzuolunmaz şəxs” elan edilməsi mövzusuna toxunub. Qeyd edib ki, AŞPA üzvlərinin səfərinə qadağa Azərbaycanın təşkilata qayıdışından sonra aradan qaldırılacaq. Yəni AŞPA-ya təkrarən xatırladılır ki, o, öz səhvlərini aradan qaldırsın, ikili standartlara son qoysun və təşkilatda bundan sonra qarşılıqlı hörmət əsasında münasibətlər bərpa edilsin.

Ədalət naminə qeyd edək ki, AŞPA-da Azərbaycanın bu çağırışına adekvat reaksiya verən çoxlu sayda deputat var. Həmin deputatlar AŞPA rəhbərliyinə müraciət edərək, Azərbaycana qarşı ədalətsiz qərarların aradan qaldırılmasını istəyiblər. Bununla yanaşı, ortada pozuculuq edən, münasibətlərin bərpasına deyil, daha da pisləşməsinə çalışan deputatlar da az deyil.

Bu qrupun önündə Almaniya deputatı Frank Şvabe gəlir. O, Azərbaycan nümayəndə heyətinin AŞPA-da fəaliyyətini dayandırmasından sonra da ölkəmiz əleyhinə çıxışlar edir. Bu çıxışlardan belə nəticə çıxır ki, F.Şvabe AŞPA-nın deputatı kimi deyil, “erməni şəbəkəsi” tərəfindən ələ alınmış lobbi qruplarının üzvü kimi davranır.

Sirr deyil ki, Avropa məkanında “erməni şəbəkəsi” tərəfindən ələ alınmış və Azərbaycana qarşı fəaliyyətə cəlb edilmiş xüsusi missioner qruplar mövcuddur. Onların sırasında həm rəsmi vəzifə daşıyanlar, həm media və QHT nümayəndələri, həm də biznes aləminin təmsilçiləri yer alırlar. Fransa prezidenti Emmanuel Makronun, Avropa İttifaqının Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə ali nümayəndəsi, Aİ Komissiyasının vitse-prezidenti Cozep Borrelin və digərlərinin fəaliyyəti bu sahədə danılmaz nümunədir.

Frank Şvabe də məhz bu qrupda yer tutur. Yeri gəlmişkən, Frank Şvabenin karyerası qara biznes, korrupsiya və rüşvət qalmaqalları, islamofob çıxışlarla zəngindir. F.Şvabe 2016-cı ildə Almaniya parlamentində qondarma erməni soyqırımının tanınması üçün kampaniya aparan siyasətçilərdən biridir. Mediada bununla bağlı kifayət qədər yazılar vardır.



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**




# Avropa Şurasının düşünmək üçün 3 ay vaxtı var

*Ya şvabeləri ayaqlarına bağlasınlar, ya da...*

**(əvvəli 1-ci səhifədə)**

Məlumdur ki, bu il yanvarın 24-də Azərbaycanın AŞPA-dakı nümayəndə heyəti qurumda iştirakını qeyri-müəyyən müddətə dayandırdığnı bildirib. Nümayəndə heyətimizin üzvləri həmin gün Strasburqda bəyanat yayaraq özlərinin etimadnaməsinin qəbul edilməməsi ilə bağlı təşəbbüsün ölkəmizə qarşı aparılan qərəzli kampaniyanın bir hissəsi olduğunu vurğulayıblar.

Bəyanatda bildirilmişdi ki, Azərbaycan tarixi qələbəsindən və ərazi bütövlüyünün bərpasından sonra qarayaxma kampaniyası ilə üz-üzədir. Məqsəd ölkəmizi ləkələmək və xalqımıza qarşı inkar edilmiş ədalətin bərpası istiqamətindəki nailiyyətlərimizə kölgə salmaqdır və AŞPA-dan bunun üçün platforma kimi istifadə olunur: “Bəzi qərəzli qruplar AŞPA-nın əsas prinsiplərindən öz dar maraqları üçün sui-istifadə edirlər. AŞPA-da siyasi korrupsiya, ayrı-seçkilik, etnik və dini nifrət, ikili standartlar, təkəbbür, şovinizm üstünlük təşkil edən praktikaya çevrilib”.

Bəyanatda, eyni zamanda, bildirilmişdi ki, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin bu qurumda səlahiyyətlərinə etiraz etmək təşəbbüsü ölkəmizdəki mövcud seçki prosesinə müdaxilə cəhdi və demokratik təsisatları sarsıdan, qurumun nüfuzuna və qərəzsizliyinə ciddi zərbə olacaq addımdır, habelə AŞPA-dakı dözülməz irqçilik, azərbaycanofobiya və islamofobiyanın göstəricisidir. Buna görə də ölkəmiz onunla əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırıb.

Qeyd edək ki, azərbaycanlı deputatların səlahiyyətlərinin məhdudlaşdırılması ilə bağlı təşəbbüsün müəllifi haqqında söz açdığımız F.Şvabe olub. Əlbəttə, alman deputatın gətirdiyi arqumentlər gülünc və absurddur. Tam aydındır ki, bu şəxs sifariş yerinə yetirir. Onun indi anti-Azərbaycan yönümlü fikirlər səsləndirməsi də, bir müddət əvvəlki oxşar mülahizələri də həmin sifarişin nəticəsidir. Belə bir durumda sual yaranır: Avropa Şurası Azərbaycanla yollarını ayırmaq istəyir? Məgər qurumda anlamırlar ki, Şvabe kimi keçmişi və bu günü qaranlıq adamların ortaya salınması bütün körpülərin yandırılması deməkdir?



O da məlumdur ki, AŞPA-nın Azərbaycanın nümayəndə heyətinin etimadnaməsinin qəbul edilməməsi ilə bağlı qərarı ölkəmizin assambleyadan bir il müddətinə kənarlaşdırılmasıdır. Qarşıda üç ay var. Belə görünür, Şvabenin ortaya atılması ilə bir illik müddətin artırılması üçün zəmin hazırlanır. Şübhə yoxdur ki, qarşıdakı aylarda alman deputat daha fərqli həyasızlıqlara əl atacaq. Daha doğrusu, Qərbin anti-Azərbaycan fəaliyyətinin yeni təzahür formalarını nümayiş etdirəcək.

Ümumən, şvabelərin ortaya atılmasının məqsədləri sırasında bir çox amillər dayanır. Otuz ilə yaxın müddətdə Azərbaycan torpaqlarının işğalına göz yummuş Avropa Şurası kollektiv Qərbin təmsilçisi kimi Ermənistanı qorumaq siyasətini həyata keçirir. Mövcud siyasət Cənubi Qafqazda sülhün yaranma imkanlarını aradan qaldırmağa hesablanıb. Ona görə də Azərbaycanın gözdən salınması prosesi gedir. Ölkəmizə qarşı total antipatiya mühiti formalaşdırılır ki, ölkəmiz qeyri-adekvat sülh şərtləri ilə razılaşsın. Nəticə etibarilə Qərbin erməni avantürizmi davamını tapsın.

Ancaq məlumdur ki, Azərbaycan şvabelərin və onları kukla kimi oynadanların qarşısından geri çəkilməyəcək. Ölkəmiz daim öz prinsiplərinə sadiq qalacaq. Bunun alternativi yoxdur. Əgər Avropa Şurasında buna dəyər verən yoxdursa, Azərbaycana da belə bir qurumda təmsilçilik lazım deyil. Yəni, düşünmək növbəsi AŞ-dəki rəhbər şəxslərindir. Ya şvabelərini dartıb ayaqlarına bağlasınlar, ölkəmizlə normal münasibət saxlasınlar, ya da təşkilatı tamamilə tərk edirik. Qarşıda çox yox, cəmi üç ayları var.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Mərakeşdə erməni təxribatının qarşısı alınıb

**Mərakeş Krallığında keçirilən beynəlxalq film festivalında erməni təxribatının qarşısı alınıb.**

Bu barədə Azərbaycanın Mərakeşdəki səfirliyindən məlumat verilib. Bildirilib ki, sentyabrın 11-15-də Mərakeşin Agadir şəhərində keçirilən İssni Nurgh Beynəlxalq Amaziq film festivalı çərçivəsində erməniəsilli Katia Spivakova Saakiantsın müəllifi olduğu 11 dəqiqəlik “All I need” filminin sentyabrın 13-də nümayişinin planlaşdırılması nəzərdə tutulmuşdu.

Festivalın rəsmi səhifələrində və sosial şəbəkələrində yayımlanmış məlumatlarda filmin süjetinin ölkəmizin vaxtilə Ermənistan tərəfindən işğal olunmuş ərazilərində baş verən hadisələrlə əlaqədar olduğu və Qarabağın Ermənistanın tərkib hissəsi kimi “Artsax” olaraq göstərilməsi məlum olub. Filmdə qondarma “erməni soyqırımı”na da istinad edilib.

Bununla əlaqədar olaraq, Azərbaycanın Mərakeşdəki səfirliyinin bu ölkənin əlaqədar qurumları, festivalın təşkilatçıları ilə apardığı iş nəticəsində təxribat xarakteri daşıyan filmini nümayişinin ləğv edilməsinə və bununla da Mərakeş tamaşaçısında yanlış məlumat formalaşdırmaq istəyən erməni təbliğatının qarşısının alınmasına nail olunub.

**XQ**




# Avropa Ağırlıqqaldırma Federasiyası ilə əməkdaşlıq



**Gənclər və İdman naziri Fərid Qayıbov Avropa Ağırlıqqaldırma Federasiyasının prezidenti Antonio Konflitti ilə görüşüb.**

Nazir qonağa ölkəmizdə idman sahəsində görülən işlər və qazanılan uğurlar barədə məlumat verib.

Görüş zamanı Azərbaycanda ağırlıqqaldırma idman növünün inkişafı istiqamətində görülən işlər, Avropa Ağırlıqqaldırma Federasiyası ilə əməkdaşlıq perspektivləri və digər məsələlər müzakirə olunub.

# Hayların tərs marşrutu: günbatandan gündoğana

(əvvəli 1-ci səhifədə)

Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryanın Tokioya səfəri barədə üç gün əvvəl yerli media xəbər vermişdi. Yaponiyanın Bakıdakı səfirliyinin yaydığı cavab məktubunda Ermənistan hərbi nümayəndə heyətinin gündoğan ölkəyə səfəri ilə bağlı məlumatı təsdiqləyib. İntəhası, cavab məktubunda o da nəzərə çatdırılır ki, burada söhbət Yaponiyanın Ermənistana silah tədarükündən getmir: “Yaponiya səfirliyi Ermənistanın müdafiə naziri Suren Papikyanın Yaponiyaya səfərindən xəbərsizdir. Lakin biz Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın Tokioya səfərindən xəbərdarıq. Fakt budur ki, Yaponiyadan Ermənistana silah tədarükü ilə bağlı heç bir müzakirə aparılmayıb”.

Bununla bağlı səfirliyə xatırlatmaq yerinə düşər ki, xəbərlərdə Tokioya İrəvandan hansı rəsminin səfər etdiyi, onun Ermənistanın müdafiə naziri olduğu göstərilməmişdi. Sadəcə olaraq vurğulanmışdı ki, Ermənistan nümayəndə heyəti “Gündoğar diyardadır” və o, silah alqı-satqısı ilə bağlı yaponiyalı həmkarları ilə danışıqlar aparmaq niyyətindədir. Amma, eyni zamanda, Yaponiyanın Bakıdakı səfirliyi Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryanın Tokioya səfər etdiyini təsdiqləyib. Armen Qriqoryanın kuratorluq etdiyi sahənin səciyyəvi xüsusiyyətlərini nəzərə alsaq, sadə diplomatik məntiqlə onun “Gündoğar ölkə”yə heç də suşinin hazırlanması texnologiyasını öyrənmək məqsədilə getmədiyi aydınlaşar. Axı, bu, Günəşin mövcudluğu qədər danılmaz faktdır. O da görünən gerçəklikdir ki, Ermənistan hakimiyyəti Azərbaycanla sülhə gəlmək əvəzinə, dünyanın dörd tərəfini dolaşaraq, sonda heç bir faydası olmayacaq maliyyə və hərbi dəstək axtarışındadır. Onun budəfəki “dünya turnesi” ənənəvi Şərqdən Qərbə tərəf deyil, Qərbdən Şərq istiqamətinə “planlaşdırılıb”. Səbəbini az sonra göstərəcəyik.

***

Tokioya qədər Ermənistan rəsmiləri Seulda təşkil edilən beynəlxalq konfransa qatılmışdılar. Amma, göründüyü kimi, məsələ təkcə Cənubi Koreya ilə məhdudlaşmayıb. Ermənistanın silah əldə etməkdən ötrü gözünü dikdiyi ölkələrin sırasına Yaponiyanın da əlavə olunduğu baş vermiş faktdır. Ermənistan nümayəndə heyəti məhz silah alınması ilə bağlı danışıqlar aparmaq məqsədilə gündoğan ölkədə işgüzar səfərdədir.

“Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryan Yaponiyaya işgüzar səfəri çərçivəsində bu ölkənin xarici işlər üzrə dövlət naziri Tsiqe Yoşifumi ilə görüşüb”. Bu barədə hökumətə yaxınlığı



ilə seçilən “Armenpress” agentlyi dünən məlumat yayıb. Deyilir ki, regionun təhlükəsizliyi və sabitliyinə gəlincə, Armen Qriqoryan İrəvanın irəli sürdüyü “dünyanın kəsişməsi” layihəsinin rolu və əhəmiyyəti barədə yaponları ərtaflı məlumatlandırıb. Həmsöhbətlər Ermənistan və Yaponiya arasında müxtəlif sahələr üzrə ikitərəfli münasibətlərin inkişaf imkanlarını da müzakirə ediblər.

Kənar müşahidəçi üçün İrəvanın Seul və Tokioda silah tədarükü ilə bağlı danışıqlar aparması gözlənilməzlik effekti, sürpriz yarada bilər. Ən azı ona görə ki, Azərbaycanın Cənubi Koreya və Yaponiya ilə çox geniş ikitərəfli ticari-iqtisadi əlaqələri var. Bircə bu faktı qeyd etmək kifayətdir ki, 2023-cü ildə Azərbaycanla Cənubi Koreya arasında ticarət dövriyyəsinin həcmi 430 milyon dollar təşkil edib (müqayisəli təhlil üçün nəzərə çatdıraq ki, İrəvanla Seul arasında bu həcm 193,5 milyon dollar təşkil edib). İki ölkə arasında iqtisadi əməkdaşlıqla yanaşı, siyasi əlaqələr də intensiv şəkildə inkişaf edir. Məsələn, Koreya Respublikasının Prezidenti Yun Seok-Yol İlham Əliyevin cari ilin fevralında dövlət başçısı seçilməsi münasibətilə təbrik məktubunda aşağıdakı sözləri yazmışdı: “1992-ci ildə ölkələrimiz arasında diplomatik münasibətlər qurulandan bəri müxtəlif sahələrdə dostluq və əməkdaşlıq münasibətlərimiz durmadan genişlənib. Mən xüsusilə enerji, infrastruktur, səhiyyə, “ağıllı kəndlər” və s. sahələrdə əməkdaşlığımızın son vaxtlar güclənməsindən məmnunam”. O, iki ölkə liderlərinin birgə səyləri ilə Bakı ilə Seul arasında əlaqələrin daha da inkişaf edəcəyinə əminliyini ifadə edib.

Yaponiya–Azərbaycan münasibətlərinə də eyni tendensiya xasdır. Ötən il ölkələrimiz arasında ticarət dövriyyəsi 2022-ci illə müqayisədə 49 faiz artaraq 452 milyon ABŞ dollarına çatıb. O da hamıya məlumdur ki, Azərbaycan Yaponiya şirkətlərini işğaldan azad edilmiş Qarabağ iqtisadi rayonunun ərazilərində yaradılan “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarının həyata keçirilməsində iştiraka dəvət edib.

***

Nəhayət, gələk əsas məsələnin üzərinə. Yuxarıda qeyd etdiyimiz kimi, rəsmi İrəvanın silah tədarükü ilə bağlı Seul və Tokio ilə danışıqlara girişməsi ilk baxışda təəccüb doğura bilər. Fəqət, Cənubi Koreya və Yaponiyanın beynəlxalq arenada tutduqları mövqeləri və tərəfdaşlıq etdikləri “böyük gücləri” nəzərə alsaq, burada təəccüblü heç nə görməyəcəyik. Çünki Asiyanın aparıcı bu iki dövləti özlərinin milli təhlükəsizliyi üçün ABŞ-dən, demək olar ki, birbaşa asılı vəziyyətdədirlər. Onlar Asiya–Sakit okean regionunda, sadəcə, Vaşinqtonun yaxın müttəfiqləri deyil, eyni zamanda, onun “peykləri”dir. Bu ölkələrin hərbi potensialına və müasir silah istehsalı qabiliyyətinə gəlincə, müstəqil şəkildə silah və texnika istehsal edə bilsələr də, onlara “lisenziyanı” Birləşmiş Ştatlar verir. Məhz ABŞ-nin lisenziyaları əsasında və onun hərbi-sənaye texnoparkından istifadə etməklə müəyyən miqdarda silah-sursat istehsal edirlər.

Biz burada Vaşinqtonun Ermənistana münasibətdə, birbaşa iştirak etmədən, müttəfiqləri vasitəsilə hərəkət edən ABŞ-nin ənənəvi taktikasını görürük. Reallıq ondan ibarətdir ki, Cənubi Koreya və Yaponiyanın Ermənistana silah verməlari planının arxasında Vaşinqtonun dayandığı hamıya gün kimi aydındır. Bu plan və hərəkətlər 2024-cü il aprelin 5-də Brüsseldə “üçlüyün” (Aİ–Ermənistan–ABŞ) gizli razılaşmasının nəticələridir. İndi Ermənistanın sərgilədiyi “silahlanma diplomatiyası” Ursula Fon der Lyayen, Nikol Paşinyan və Antoni Blinkenin iştirakı ilə keçirilən həmin görüşdən sonra əldə olunmuş “Brüssel razılaşması”nın mahiyyətinə və məntiqinə tamamilə uyğun sayılmalıdır.

Açıq demək lazımdır ki, Ağ Evin aprelin 5-dən sonra Cənubi Qafqaza yönəlik hərəkətləri, əslində, Azərbaycana qarşı yeni müharibə çağırışının işartılarıdır. Vaşinqton həm USAID, həm Aİ, həm də Fransa üzərindən Ermənistana hərbi-siyasi dəstək verməklə bölgədə sülhə deyil, yalnız öz mənafeyinə xidmət edir. Belə görünür ki, Paşinyan və komandası son 4 ildə artıq neçənci dəfə onu “maşa”ya çevirmiş avantüristlərin fitvasına gedir. Bu cür destruktiv və özü üçün riskli fəaliyyətə baş vuran rəsmi İrəvanın bu zaman öz ictimaiyyəti ilə hesablaşmaması da göz önündədir. Deməli, onun erməni xalqından “sən müharibə istəyirsənmi?”– soruşmağa belə üzü qalmayıb. Kollektiv Qərbin buyruq qulu səviyyəsinə enmiş Ermənistan hakimiyyəti hələ bir tarixin zibilliyinə gömdüyümüz “artsax məsələsi”ni də beynəlxalq gündəmə daşımaq üçün cəhd göstərir. Nə gizlədək, bu təxribatçı-separatçı “projenın” reallaşması üçün İrəvana ən böyük dəstəyin ABŞ Senatı və Konqresi tərəfindən verilməsi qətiyyən təəccüblü deyil.

Amma ortada başqa bir reallıq da var. Azərbaycanın yaratdığı reallıq! Azərbaycan Prezidenti İlham Əliyev keçən həftənin sonunda Azərbaycan–Türkiyə parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi Böyük Millət Məclisinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul edərkən dedi ki, Ermənistan qəsdən vaxtı uzadır və Fransadan, Qərb ölkələrindən yeni silahlar alır, öz ərazisində üçüncü tərəflərlə hərbi təlimlər keçirir. Dövlətimizin başçısı, həmçinin bildirib: “Biz bölgədə sülhün tərəfdarıyıq. Bunun üçün dəfələrlə qeyd etdiyimiz kimi, Ermənistan konstitusiyasında Azərbaycana qarşı olan ərazi iddiaları aradan qaldırılmalıdır və konstitusiya dəyişdirilməlidir”.

İrəvana ən doğru söz Uzaq Şərqdən deyil, yaxından ünvanlanıb. Onun qurtuluşu, sadəcə, bunu eşitmək və yerinə yetirməkdədir.

***İ.HƏSƏNQALA***
***XQ***

# Okampo həqiqət və ədalət hissini itirib

(əvvəli 1-ci səhifədə)

Qeyd edək ki, bu səfər və keçiriləcək görüşlə bağlı məlumat bir neçə gün əvvəl yayılmışdı. Təşəbbüskarın və qonağın kimliyi görüşdə hansı məsələlərin müzakirə olunacağını ehtimal etməyə əsas verirdi. Belə də oldu. Okampo bir çox məsələlərlə bağlı danışsa da və ermənilərə, necə deyərlər, canıyananlıq edərək xeyli məsləhətlər versə də, diqqəti əsasən Azərbaycanda separatçılıq əməlləri törətdikləri üçün həbs edilmiş xunta rejiminin sabiq “qlavar”larının azad olunmasına yönəldib. Təxminən iki saat davam edən açıq görüşdə argentinalı dələduz “beynəlxalq ədalətə nail olmaq və Artsax ermənilərinin geri qayıtmaq hüququnu təmin etmək üçün” ermənilərin əlində rəhbər tuta biləcəyi “yol xəritəsini” təqdim edib. “Erməni hərbi əsirlər” adlandırdığı şəxslərin sərbəst buraxılması üçün Azərbaycana təzyiq göstərməyin mümkün yollarından danışıb.

Xaricdəki erməni diasporundan külli miqdarda pul aldığı heç kəsdə şübhə doğurmayan Okampo deyib ki, bir neçə ay əvvəl internetdə başlatdığı “erməni məhbuslar”ın azad edilməsi kampaniyası kifayət qədər uğurlu olub. “Bu kampaniyanı 32 ölkədən olan ermənilər dəstəklədi, mən ilk dəfə beynəlxalq səviyyədə əməkdaşlıq gördüm” – deyən sabiq prokurorun sözlərinə görə, hərəkata təkcə ermənilər deyil, akademik mühitin, universitetlərin nümayəndələri də qoşulublar. Diasporun prosesə necə töhfə verə biləcəyini soruşduqda, Okampo belə cavab verib: “Səhər yuxudan oyananda sosial şəbəkələrdə COP29 heşteqi ilə “erməni girovlarını azad edin!” və “erməni soyqırımını dayandırın!” yazın. Bunun özü kifayət qədər güclü bir mesaj olar”.

Onun fikrincə, bu cür ucuz hərəkətlər “ciddi siyasi təzyiq” yarada bilər. Vurğulayıb ki, indiki mərhələdə bu cür hərəkətlərə hökumət deyil, məhz erməni xalqı və diaspor təşəbbüs göstərməlidir. O, təklif edib ki, bütün dünya erməniləri öz hökumətlərinə müraciət edərək Azərbaycana təzyiq göstərməyə çağırsınlar və separatçı “qlavar”ların azad edilməsinə nail olsunlar: “Bu, mühüm siyasi proses ola bilər və iqlim konfransı beynəlxalq ictimaiyyəti səfərbər etmək üçün əsas məqamdır”.

Beynəlxalq hüquqa gəldikdə isə Okampo lap ağ edib. Onun sözlərinə görə, beynəlxalq hüquq da ermənilərin tərəfindədir. Eyni zamanda, sabiq prokuror Qarabağın erməni əhalisinin hüquqlarının qorunmasının vacibliyini vurğulayıb və onun İrəvanda başlarını girləyən hazırkı “qlavarlar”ına geri dönüş planının işlənib hazırlanmasında, eləcə də onların hüquqlarının Azərbaycan tərəfindən tanınması ilə bağlı danışıqlarda öz yardımını təklif edib.

Başabəla hüquqşünasın fikrincə, 2024-cü il noyabrın 11-22-də paytaxtımızda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası Qarabağ ermənilərin hüquqlarının dəstəklənməsi baxımından beynəlxalq ictimaiyyət üçün ciddi sınaq olacaq.



Ümumiyyətlə, COP29 xaricdəki bir çox azərbaycanofob və islamofob şəxslər kimi Okampo üçün də göydəndüşmə fürsət olub. Xaricdəki varlı-hallı ermənilərin pul kisəsindən asılı olduğu heç kimdə şübhə doğurmayan biri kimi Okampo da ortalığa atılaraq, hələ də istifadəyə yararlı olduğunu sübut etməyə, daha çox vəsait qoparmağa çalışır. Okampo aldığı pulların əvəzini ödəmək üçün, necə deyərlər, dəridən-qabıqdan çıxır.

O, hələ 2024-cü il iyul ayının 23-də özünün saytında ermənilərə açıq məktub ünvanlamışdı. Məktubun girişində hayların ünvanına təriflər yağdıraraq, daha sonra onlara “yol xəritəsi”ni təqdim etmişdi. O, erməniləri COP29-a qədər səylərini birləşdirməyə, mediada və sosial şəbəkələrdə separatçı erməni “qlavar”lara dəstək kampaniyası başlatmağa çağırmışdı. BMT-nin iqlim konfransını siyasiləşdirərək, onu “erməni məhbuslar”ın azad edilməsi üçün görünməmiş şans hesab etdiyini bildirmişdi. Yeri gəlmişkən, sentyabrın 13-də İrəvanda keçirilən görüşdə də hansısa yol xəritəsindən danışılıb. Deyəsən, onun əsas işi hüquqşünaslıq etmək yox, yol xəritəsi hazırlamaqdır. Okampo çox belə yol xəritələri, daha doğrusu, planlar hazırlaya bilər. Amma onların heç biri həyata keçməyəcək.

Okamponun qeyd etdiyi bir sıra məsələlərə cavab verməyi zəruri hesab edirik. İlk növbədə beynəlxalq hüquq üzrə mütəxəssis olan bu şəxsin diqqətinə çatdırmaq istəyirik ki, Qarabağın həm dağlıq, həm də aran hissəsi beynəlxalq hüquqa görə, eləcə də tarixən Azərbaycan torpağıdır. Ermənistan 1990-cı illərinin əvvəllərində bu əraziləri silahlı müdaxilə yolu ilə işğal etməyə nail olmuşdu. Amma elə rayonlarımızın bir-birinin ardınca işğal edildiyi 1993-cü ildə aparıcı beynəlxalq orqan olan BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxarılması ilə bağlı 4 qətnamə qəbul etdi. İndi İrəvanda əyləşib mühazirə oxuyan Okampo yaxşı bilir ki, Ermənistan 30 ilə yaxın dövr ərzində bu qətnamələri icra etmədi. Ölkəmiz 2020-ci ildə Vətən müharibəsinə başlayanda məhz BMT TŞ-nin 4 məlum qətnaməsinə, habelə bir sıra beynəlxalq təşkilatların Azərbaycanın ərazi bütövlüyü ilə bağlı qəbul etdikləri sənədlərə və tarixi gerçəkliyə istinad edirdi. Nəticədə Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi Fransa və bir neçə qatı ermənipərəst ölkə istisna olmaqla, dünya dövlətləri tərəfindən normal qarşılandı. Çünki Azərbaycan məhz beynəlxalq hüquqa uyğun hərəkət etmişdi. O beynəlxalq hüquqa ki, Okampo ondan tez-tez bəhs edir.

Maraqlıdır ki, Ermənistan hökumətini təmsil edən şəxslər Okampo ilə təmasda olmayıblar. Hər halda, dünənədək onun baş nazir Nikol Paşinyanın komandasına daxil olan hansısa şəxslə görüşdüyünə dair Hayastanın media resurslarında heç bir məlumat yox idi. Aşkar görünür ki, rəsmi İrəvan Okamponun gəlişindən o qədər də məmnun qalmayıb. “Ermənistanın səsi” qəzetində bununla bağlı dərc edilmiş “Nikol Okampoya cavab verdi: biz məhbusların azad edilməsini tələb etməyəcəyik, COP29-a gedəcəyik!” sərlövhəli məqalədə deyilir: “Son ay yarım ərzində Okampo bir neçə dəfə erməni xalqına müraciət edib. Reaksiya əsasən diaspor dairələrindən gəlib. Ermənistan ictimaiyyəti hələ lazımi fəallıq nümayiş etdirməyib. Sentyabrın 13-də İrəvanda BCM-in sabiq prokuroru ilə keçirilən görüş də məhz COP29 başlamazdan əvvəl “məhbusların” azad edilməsi üçün geniş hərəkata başlamaq məqsədi güdür. Bu ay yarım ərzində Ermənistanın de-fakto hakimiyyəti Okamponun təklifi barədə bir kəlmə də danışmayıb. Yalnız onun İrəvana səfəri məlum olandan sonra rejimin müxtəlif səviyyəli nümayəndələri öz cavablarını səsləndiriblər. Bu cavablar bir daha sübut edir ki, Paşinyanın dəstəsi istisnasız olaraq Azərbaycanın və Türkiyənin maraqlarını təmsil və müdafiə edir”.

Məqalədə daha sonra deyilir: “Birincisi, məlum oldu ki, hakimiyyət BMT-nin noyabrda Bakıda keçiriləcək konfransında iştirak etmək niyyətindədir. Nikol və onun hökumətinin üzvləri bu barədə açıq danışmaqdan yayınsalar da, müxtəlif bəyanatlarla ölkəni daha bir sarsıdıcı və rüsvayçı xəbərə hazırlayırlar. İkincisi, rəsmi İrəvan açıq mətnlə bildirir ki, Bakıdan konfransa qədər “məhbusların” azadlığa buraxılması tələb olunmayacaq. Paşinyan komandası konfransa iştirakının şərti kimi bu tələbi irəli sürmək fikrində də deyil”.

Ermənistan parlamentinin sədri Alen Simonyan isə bugünlərdə bildirmişdi ki, “erməni məhbuslar”ın qaytarılması məsələsi İrəvanla Bakı arasında sülh müqaviləsi layihəsində yoxdur. Bundan əlavə o, Ermənistanın COP29-da iştirakının şərti kimi “qlavar”ların qaytarılması məsələsini irəli sürməsi ehtimalını tamamilə rədd etmişdi.

Göründüyü kimi, Ermənistan hökumətinin özü separatçı “qlavar”larla bağlı belə bir mövqe tutduğu halda, Okampo kimilər ortaya düşərək yalandan canfəşanlıq edirlər. Onları dilə gətirən isə ermənilərdən aldıqları pullardır.

Burada bir məqam da var. Dünya ölkələrinin sərhədləri əsasən İkinci Dünya müharibəsindən sonra formalaşıb. 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsində imzalanmış yekun aktına əsasən müşavirə iştirakçıları 10 əsas prinsipi rəhbər tutmalı idilər ki, bunlardan da biri sərhədlərin toxunulmazlığı və dövlətlərin ərazi bütövlüyü prinsipidir. Yekun aktı imzalandıqdan sonra dünyada dövlətlərin sərhədlərinin dəyişdirilməsi yaxşı qarşılanmır.

Hazırda dünyanın bir çox ölkələrində, o cümlədən ABŞ-də, Böyük Britaniyada, İspaniyada, Kanadada, İraqda, lap elə Okamponun vətəndaşı olduğu Argentinada separatçı regionlar var. Bu ölkələrin hansı separatçı regiona müstəqillik verib? Təbii ki, heç biri. Bütün ölkələrdə mərkəzi hakimiyyətlər separatizmə nifrət edir. Bir ölkədə separatçıların qurduğu qondarma rejimin tanınması “domino effekti” verərək digər ölkələrdəki “sönmüş” separatizm ocağını da oyada bilər. Bəs elə isə Azərbaycan niyə separatizmlə mübarizə aparmamalı idi? Əslində isə bu, təkcə separatizm də deyildi. Bu, Qarabağ separatçılarına yardım adı altında Ermənistanın ölkəmizə qarşı işğalçılıq müharibəsi idi.

Rəsmi İrəvan işğalçı müharibəsini uydurma “Qarabağ xalqının öz müqəddəratını təyinetməsi” adı ilə pərdələmişdi. Ölkəmizin Ermənistanı məğlub etməsindən sonra Qarabağdakı separatçı rejimin başçılarını həbs etməsi isə tam qanunauyğun, məntiqli və atılması zəruri olan addım idi. Separatçı “qlavarlar”ın həbsi və rejimin buraxılması başlanılan işin sona çatdırılması deməkdir. Bu mənada dünya ölkələrində də Arkadi Qukasyanın, Bako Saakyanın, Araik Arutyunyanın, Ruben Vardanyanın və digərlərinin həbsi anlayışla qarşılanır. Necə ki, 44 günlük Vətən müharibəsi anlayışla qarşılanmışdı...

***Səxavət HƏMİD***
***XQ***

# AMEA elmi fəaliyyətin yeni mərhələsində

### II məqalə

***Ölkəmizin gələcəyi elmi potensialın səviyyəsi ilə bilavasitə bağlıdır. Bu gün yeni texnologiyalar əsridir. O ölkələr ki, bu texnologiyaların sahibidir, əlbəttə, onlar dünya miqyasında öz maraqlarını daha böyük dərəcədə müdafiə edə bilirlər.***

***İlham ƏLİYEV ,***
***Azərbaycan Respublikasının Prezidenti***

## AMEA-nın yeniləşməsinin 7 üstün istiqaməti

Dövlətçiliyə sədaqət, ölkənin strateji inkişaf kursuna xidmət və dövlət tərəfindən müəyyən olunmuş prioritetlər əsasında AMEA-nı yeniləşdirmək kursu təşkilat rəhbərliyinin müəyyən etdiyi 7 prioritet istiqamət üzrə aparılır.

Birnci prioritet istiqamət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin andiçmə mərasimində ifadə olunmuş azərbaycançılıq ideyasının elmi-nəzəri və tarixi-fəlsəfi əsaslarının işlənib hazırlanması və bütün istiqamətlər üzrə həyata keçirilməsi ilə bağlıdır. Bu yöndə əsas məqsəd AMEA-nı ölkənin əsas azərbaycanşünaslıq mərkəzinə çevirməkdən ibarətdir.

İkinci prioritet akademiyada türk dünyası üzrə tədqiqatların miqyasının genişləndirilməsini, bu sahədə konkret proqramların hazırlanıb həyata keçirilməsini əhatə edir.

Üçüncü prioritet istiqamət rəqəmsallaşma, süni intellekt və ağıllı texnologiyalarla bağlı məsələlərin AMEA-nın Humanitar və İctimai elmlər bölmələrinin əhatə etdiyi elmi tədqiqat institutlarının elmi dövriyyəsinə daxil edilməsi ilə bağlıdır.

Dördüncü istiqamət geniş mənada dünya elminə inteqrasiyanı məqsədyönlü şəkildə təşkil etmək məqsədilə beynəlxalq elmi təşkilatların üzvü olmaqla onların işində yaxından iştirak etmək, ölkəmizi yüksək səviyyədə təmsil etmək, dünya elminin ən yeni təcrübələrini akademiyaya tətbiq etməklə yeniləşməni daha da sürətləndirməyi nəzərdə tutur.

Beçinci prioritet "Gənc Akademiya" layihəsinin həyata keçirilməsinə aiddir.

Altıncı istiqamət Azərbaycan elmində, o cümlədən də akademiyada doktorantura təhsilinin Qərb modelinə uyğunlaşdırılmasını ifadə edir. Burada məqsəd doktoranturanı özünəməxsus tədris planı, fənn proqramları, kredit vahidləri, dərs sistemi olan bir təhsil səviyyəsinə çevirməkdən ibarətdir.

Yeddinci istiqamət AMEA-da struktur islahatlarının davam etdirilməsi yolu ilə mövcud idarəetmə strukturlarının yeniləşdirilməsinə nail olmağı əks etdirir.

Aydın görünür ki, bu prioritet istiqamətlər məzmun və məqsədcə bir-birini tamamlayırlar və kompleks halında Azərbaycanda elmin dövlətçilik kontekstində transformasiyasına xidmət edir. AMEA həmin istiamətlər üzrə son iki ildə davamlı və ardıcıl addımlar atır. Onların üzərində dayanaq.

## Yeni struktur vahidləri

AMEA Rəyasət Heyəti Aparatında 18 yanvar 2023-cü il tarixində "Elektron Akademiya" şöbəsi yaradılmışdır. Bu, həm müasir tələblərə uyğun elmi fəaliyyəti idarə etmək, həm də Azərbaycan alimlərinin araşdırmalarını çevik surətdə dünya miqyasına çıxarmaq istiqamətlərində mühüm addımdır.

Qısa müddətdə "Elektron Akademiya" şöbəsi xeyli işlər görmüşdür. Məhz bu şöbənin səmərəli fəaliyyəti nəticəsində faktiki olaraq akademiyada elektron hərəkat başlanmışdır. "Bir il ərzində Akademiyanın elmi-tədqiqat institutları əməkdaşlarının əsərlərinə elmi istinadları, reytinq göstəricilərini müəyyən etmək üçün, təxminən, 1700 elmi işçinin şəxsi profili yaradılmışdır. Elmi istinadları vahid mərkəzdən müşahidə etmək və əlaqələndirmək məqsədilə Milli Elmlər Akademiyasının ölkədə ilk dəfə olaraq Rəqəmsal İnformasiya Resursları Mərkəzi təsis edilmişdir" (AMEA hesabatı, 2023-cü il).

Bundan başqa, AMEA-nın elmi bölmələrinin və akademiyanın tabeliyində olan elmi müəssisələrin 8 elmi jurnalı elektron bazada yerləşdirilmişdir. Akademiyada nəşr edilən jurnallarda çap olunan məqalələrin hamısı DOİ ilə təmin olunmuşdur. AMEA-nın elmi jurnallarını vahid şəbəkədə birləşdirmək üçün Azərbaycan Milli Elmlər Akademiyasının Dərgi Parkı yaradılmışdır. Onu vurğulayaq ki, həmin istiqamətdə Türkiyənin beynəlxalq miqyasda nüfuzlu elm və texnologiya mərkəzlərindən biri kimi qəbul edilən TUBİTAK-la əlaqələrin inkişafı xüsusi yer tutur.

Məsələn, IV Sənaye inqilabı, süni intellekt, rəqəmsallaşma, seysmologiya, arxeologiya və sair istiqamətlərdə əməkdaşlıq üçün geniş imkanlar yaradılmışdır. İlk dəfə olaraq AMEA-nın 3 elmi jurnalı TUBİTAK-ın ULAKBİM-Dərgi Parkı elektron baza reyestrinə daxil edilmişdir.

Bütövlükdə, Türk dünyası üzrə "Elektron Akademiya" şöbəsinin əhatəli fəaliyyəti ölkənin ali elmi təşkilatında ciddi yenilikləri həyata keçirməyə imkan vermişdir. Onların hər birinin üzərində dayanmaq imkanı burada yoxdur.

Eyni zamanda, AMEA əməkdaşlarının Google Scholar, Web of Science, Scopus bazalarında profillərindəki məlumatların toplanılaraq təhlil edilməsi imkanı yaranmışdır.



"Elektron Akademiya" şöbəsi ilə yanaşı, "Elektron Kitabxana" yaradılması istiqamətində AMEA ciddi fəaliyyət göstərir. "Elektron Kitabxana" müasir elmi inkişafda xüsusi rol oynayır. Onun həm biliklərin saxlanması, qorunması, həm də elmi təcrübələrin çevik ötürülməsi aspektlərində əhəmiyyəti danılmazdır. AMEA Mərkəzi Elmi Kitabxanasının yeni gənc rəhbərliyi bu istiqamətdə aktiv fəaliyyət göstərir və konkret nəticələr alınır.

Yeni struktur vahidlərinin yaradılması AMEA-nın hər bir müəssisəsini əhatə etmişdir. Burada başlıca prinsip həm idarəetməni yeni səviyyəyə yüksəltmək, həm tədqiqatları müəyyən edilmiş prioritet istiqamətlər müstəvisinə gətirməkdən ibarətdir. Bu bağlılıqda "Elmi tədqiqat işlərini müasir dövrün tələblərinə uyğunlaşdırmaq, paralellikləri və təkrarçılığı aradan qaldırmaq məqsədilə AMEA-nın Rəyasət Heyəti Aparatında və elmi tədqiqat institutlarında aparılan ixtisarlar və birləşdirmələr vasitəsilə yaradılmış Qarabağ müharibəsi və Böyük Qayıdış hərəkatı, Qərbi Azərbaycan tarixi, Qərbi Azərbaycan folkloru, Toponimika, İdrak nəzəriyyəsi və məntiq, Xəzərin arxeologiyası, Çöl tədqiqatlarının təşkili və monitorinqi, Erkən realizm və yeni dövr Azərbaycan ədəbiyyatı şöbələri" fəaliyyətdədirlər (AMEA hesaabtı, 2023).

Bundan başqa, türkologiya ilə bağlı yeni şöbələr yaradılmışdır. O cümlədən, Fəlsəfə və Sosiologiya İnstitutu nəzdində AMEA tarixində ilk dəfə olaraq Türk xalqlarının fəlsəfəsini müasirlik kontekstində araşdıran şöbə formalaşdırılmışdır. Bu kimi yeniliklərin elmi fayda verəcəyinə qətiyyən şübhə yoxdur.

## Elmi fəaliyyətin təşkili

AMEA-da son iki ildə elmi fəaliyyətin təşkilində ciddi keyfiyyət dəyişiklikləri müşahidə edilir. Hər şeydən öncə, ölkənin strateji inkişaf kursuna uyğun yeni mövzuların araşdırılması sistemli və davamlı xarakter almışdır. Burada ilk sırada milli dövlətçilik faktoru yer almaqdadır. Həmin kontekstdə də AMEA ulu öndər Heydər Əliyevlə bağlı tədqiqatlara xüsusi diqqət yetirməkdədir. Yəni burada əsas olaraq AMEA-nın yeniləşməsi prosesi kontekstində, ilk növbədə, təşkilat müstəqil Azərbaycan dövlətçiliyinin keçdiyi siyasi-tarixi mərhələləri elmi cəhətdən əsaslandırılmış şəkildə araşdırmaqla iki istiqamətdə qarşısına məqsəd qoymuşdur.

Birincisi, müstəqil Azərbaycan dövlətçiliyini, onun mahiyyətini yenidən ciddi elmi dərk etməklə əsl məzmununu aydınlaşdırmaqla bağlıdır.

İkincisi, alınan elmi qənaətləri cəmiyyətə, xüsusilə gənclərə təşviq etməklə müstəqil dövlətçiliyimizə bağlılığı yeni səviyyəyə yüksəltməklə əlaqəlidir.

Bütün bunlara görə, 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması kontekstində AMEA-da ciddi elmi tədbirlərin həyata keçirilməsi bir zərurət idi. Bütövlükdə, Heydər Əliyevin yubiley ili çərçivəsində Ulu öndərə həsr edilmiş 56 fundamental nəşr ərsəyə gətirilmişdir. 60-dan çox yerli və beynəlxalq konfrans keçirilmişdir ki, 15 konfrans materialı çap edilmişdir. Və bütün bunlar elmi fəaliyyətin AMEA-nın yeniləşmə kursunda müstəqil dövlətçilik ideallarına doğru istiqamətlənən prinsip üzrə reallaşdırılmışdır.

Bundan başqa, Ümummilli liderin 100 illik yubileyinə həsr edilmiş "Heydər Əliyev: dahilik, zaman və müasirlik" mövzusunda AMEA ümumi yığıncağının xüsusi iclası keçirilmişdir. "Azərbaycanlı məruzəçilərlə yanaşı, Türkiyə Elmlər Akademiyasının başqanı, professor Müzəffər Şəkər "Azərbaycan–Türkiyə birlik və həmrəylik: tarix və müasirlik", Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun başqanı, professor Yeksəl Özgen " Bir millət-iki dövlət" strategiyası: Mustafa Kamal Atatürkdən Heydər Əliyevə", Özbəkistan Elmlər Akademiyasının vitse-prezidenti, akademik Sirojiddin Mirzoyev "Ozbəkistan və Azərbaycan əlaqələri: Heydər Əliyevdən İlham Əliyevə", Gürcüstan Milli Elmlər Akademiyasının prezidenti, akademik Roin Metreveli "Görkəmli dövlət xadimi Heydər Əliyev və Gürcüstan" mövzularında məruzələrlə çıxış etmişlər" (AMEA hesabatı, 2023).

AMEA-nın Ulu öndərlə bağlı aarşdırmaları və keçirdiyi elmi tədbirlər çox zəngindir və burada onların hər biri üzərində dayanmaq imkanı yoxdur. Lakin AMEA rəhbərliyi üçün Heydər Əliyev mövzusu müstəqil Azərbaycan dövləti, azərbaycançılıq ideologiyası, ölkəmizin inkişaf strategiyası, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu islahatların və qazanılmış tarixi Zəfərin elmi şəkildə araşdırılıb, fundamental tədqiqatlara çevrilməsinin açarıdır. Əsasən humanitar və ictimai elmləri əhatə edən Milli Elmlər Akademiyası üçün dövlətçiliyin elmi əsaslandırılmasının işlənib hazırlanması şərəfli və məsuliyyətli vəzifədir.

Eyni zamanda, AMEA rəhbərliyi elmi tədqiqat institutları arasında yaradıcılıq əməkdaşlığını yeni səviyyəyə yüksəltmişdir. Nümunə üçün Fəlsəfə və Sosiologiya, Tarix və Arxeologiya, Ədəbiyyat və Şərqşünaslıq institutları ortaq elmi tədbirlər keçirmişlər. Bu institutlarda aparılan araşdırmaların birgə müzakirəsi təşkil edilmişdir.

Nümunə kimi Azərbaycanda milli fəlsəfənin təhlili ilə bağlı Fəlsəfə və Sosiologiya, Ədəbiyyat, Folklor, Şərqşünaslıq və Tarix institutlarının birgə Azərbaycan tarixinin dövrləşdirilməsi, ədəbi-tarixi şəxsiyyətlərin öyrənilməsinə yenidən qayıdış, yeni tarixi dövrün milli ideologiyası kimi məsələlər AMEA Rəyasət Heyətinin iclaslarında kollegial qaydada müzakirə olunmuş, icra mexanizmləri müəyyən edilmiş, konkret addımlar atılmışdır.

Bu günlərdə, 4 sentyabr 2024-cü il tarixində AMEA A.Bakıxanov adına Tarix və Arxeologiya İnstitutunun təşkilatçılığı ilə bir neçə xarici ölkə alimlərinin və akademiyanın əlaqədar institutlarının iştirakı əsasında keçirilmiş I Şah İsmayıl Xətai Simpoziumunun təşkili azərbaycançılıq və ədəbi-tarixi şəxsiyyətlərə qayıdış konsepsiyasının həyata keçirilməsi baxımından əhəmiyyətli olmuşdur. Bu istiqamətdə aparılan davamlı yeniləşmə AMEA-nın elmi tədqiqat institutları arasında elmi fəaliyyətin təşkilində koordinasiyanın güclənməsinə və konkret nəticələrin alınmasına imkan yaratmışdır.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki, fəlsəfə elmləri doktoru***

# Şəkidə yaşıl dünya və hüquqi əsaslar mövzusunda seminar



**Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq, sentyabrın 14-də Şəki Rayon Prokurorluğunun inzibati binasında "Yaşıl dünyanın hüquqi əsasları" mövzusunda seminar keçirilib. Toplantıda prokurorluq əməkdaşları ilə yanaşı, media qurumları və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.**



Ətraf mühitin mühafizəsi, habelə prokurorluq orqanlarının ekoloji hüquqpozmalara qarşı mübarizəsi ilə bağlı məlumatlığın artırılması məqsədilə təşkil olunmuş seminarda Şəki rayon prokuroru Mehman Xankişiyev prokurorluğun fəaliyyəti, cinayətkarlığa qarşı aparılan mübarizə tədbirləri, insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı görülən işlər barədə danışıb. O, prokurorluq orqanlarının digər dövlət qurumları ilə birgə ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın bərpa edilməsi istiqamətində gördüyü kompleks işlər barədə məlumat verib, yaşıl dünya naminə beynəlxalq əməkdaşlığın əhəmiyyətindən bəhs edib.

Baş Prokurorluğun mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov içtirakçıları yaşıl dünya üçün hüquqi tənzimləmələrin əhəmiyyəti, təbii resurslar və bioloji çeşidliliyin qorunması, tullantıların idarə olunması, alternativ enerji istehsalı, zərərli kimyəvi maddələrin idarə edilməsi kimi sahələrdə formalaşmış hüquqi, normativ əsaslar və hüquqi məsuliyyət tədbirləri barədə məlumatlandırıb.

Şəki rayon prokurorunun köməkçisi Amil Yaqubov isə ekoloji təhlükəsizliyin təmin edilməsi istiqamətində rayonda görülən işdən danışıb.

Seminarda fikir mübadiləsi aparılıb, ekoloji hüquqpozmalara qarşı prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı suallar cavablandırılıb.

*

**Dünən Şəki rayon prokurorluğunda "Açıq qapı günü" də təşkil edilib.**

Qonaqlar, media və qeyri-hökumət təşkilatlarının nümayəndələri Şəki Rayon Prokurorluğunun yeni istifadəyə verilmiş inzibati binasında əməkdaşlar üçün yaradılmış iş şəraiti, istifadə olunan kriminalistik texnika, habelə prokurorluğun fəaliyyəti ilə ətraflı tanış olublar.

Şəki rayon prokuroru M.Xankişiyev, Baş Prokurorluğun əməkdaşı K.Zeynalov, rayon prokurorluğunun böyük müstəntiqi A.Qarayev, prokuror köməkçisi A.Yaqubov və qurumun fəaliyyəti barədə dinləyicilərə ətraflı məlumat veriblər.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

***Şəki***

# Azərbaycan–Ukrayna özəl əməkdaşlığı




**Azərbaycanda səfərdə olan 20-yə yaxın Ukrayna iş adamı yerli sahibkarlar və biznes assosiasiyaların nümayəndələri ilə görüşüblər.**

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən bildirilib ki, "Bakı KOB evi"ndə təşkil olunmuş tədbirdə Ukraynanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Yuri Qusev, "CEO Club London"nun prezidenti Sergey Qaydaçuk, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun icraçı direktorunun müavini Zöhrab Qədirov iştirak ediblər.

Görüşdə ölkəmizdə biznes və investisiya qoyuluşu imkanları, sahibkarlara göstərilən dəstək tədbirləri və iş adamları arasında əməkdaşlıq perspektivləri barədə məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb.

Tədbir çərçivəsində Azərbaycan və Ukrayna sahibkarları arasında B2B görüşlər də keçirilib, əməkdaşlıq imkanları müzakirə edilib.

**XQ**

# Moskvada BRICS ölkələrinin 7-ci Media Sammiti

***Moskvada BRICS ölkələrinin 7-ci Media Sammiti işə başlayıb.***

Tədbirdə 45 ölkədən 60 media qurumunun rəhbəri və nümayəndəsi, o cümlədən, AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev iştirak edir.

Rusiyanın TASS informasiya agentliyinin təşkilatçılığı ilə keçirilən sammit çoxqütblü dünyada medianın rolu mövzusuna həsr olunub. Tədbirə BRICS-ə daxil olan ölkələrlə yanaşı, bir sıra digər dövlətlərdən də media təmsilçiləri qatılıblar.

İştirakçılar müasir dünyada informasiya təhlükəsizliyi məsələsini və xəbər mübadiləsində texnoloji aspektləri müzakirə ediblər.

**XQ**

# "Azad Bakı, təmiz Bakı, can Bakı"

(əvvəli 1-ci səhifədə)

*Nuru Paşa at belində*
*Türkiyədən, Qarsdan gəlir.*
*Azərbaycan deyə-deyə,*
*Yaralanmış aslan gəlir.*

Yadıma o da düşür ki, həmin hadisələrin canlı şahidi olmuş Həzrətqulu adlı bir lənkəranlı ağsaqqal Xəzərin sahilindəki çayxanada həzin səslə oxuyurdu:

***Üzün güldü, gözün güldü, onda ki,***
***Nuru Paşa sənə tutdu yön, Bakı!***
***Həmin gündən hürriyyətə qovuşdun,***
***Azad Bakı, təmiz Bakı, can Bakı!***

Onda sovet dönəmi idi və təbii ki, biz yeniyetmələr nə Nuru Paşanı tanıyırdıq, nə də Azərbaycanın istiqlal savaşının təfərrüatlarından xəbərimiz vardı. Sonralar bilərək unutdurulan tarixin qatlarına nüfuz edildi və öyrənib bildik ki, 1918-ci ilin sentyabrında Bakıda nələr baş verib.

Artıq o vaxtdan düz 106 il ötür. Hər il qürurla Azərbaycan tarixinin ən şərəfli səhifələrindən birini – Bakının erməni-bolşevik işğalından azad edilməsi gününü qeyd edirik. Həmin gün Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından azad edib. Beləliklə, həm Azərbaycanın müstəqilliyi təmin olunub, həm də ermənilərin və bolşeviklərin Bakıdakı, ətraf rayonlardakı ağalığına son qoyulub.

Möhtəşəm və tarixi qələbədən sonra Bakıda parad təşkil olunub, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı sentyabrın 17-də Gəncə şəhərindən buraya köçürülüb və Azərbaycanda dövlət quruculuğunun əsas mərhələsinə start verilib. Qeyd edək ki, o zaman Bakının azad olunması iki qardaş xalqın dostluğu zəminində mühüm önəm daşıyan təməl hadisələrdəndir. Osmanlı qoşunları Bakının xilası üçün həyata keçirdikləri hərbi əməliyyatlarda 1130 şəhid veriblər. Azərbaycan növbəti dəfə müstəqillik qazandıqdan sonra hər il sentyabrın 15-də Bakıda, Şamaxı, Göyçay və digər rayonlarda ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş türk əsgərlərinin məzarları ziyarət edilir. Paytaxtdakı "Türk Şəhidliyi" abidəsinin önündə anım mərasimi keçirilir.

...Bakını azad etmək istəyən türk ordusu şəhərə lap yaxınlaşmış və onu mühasirəyə almışdı. İqtidarda olan kommunist bolşeviklərin Şaumyanın liderliyindəki hökuməti – 26 Bakı komissarı çox əndişəli günlərini yaşayırdı. Şaumyan, Çiçerinə göndərdiyi teleqramda cəbhədəki vəziyyətin get-gedə pisləşdiyini, Bakı Sovetinin sağçı qanadından bəzi qrupların ingilisləri dəvət etmək qərarına gəldiyini və şəhərin üzərinə hücum edən qüvvələrin nizami Türk Ordusu olduğunu bildirərək, Rusiyadan təcili kömək göndərilməsini istəyirdi. O, Bakıdakı rus və ermənilər vasitəsilə türk olmayan xalqlara ünvanlanan vərəqələr yayaraq, onların milli hisslərini oyatmağa çalışır, əli silah tutanı cəbhəyə çağırırdı. Həyasızlıq o həddə çatmışdı ki, şaumyanlar Bakıya gələn türklərə düşmən deyirdilər. Amma dost və qardaş türklər Bakıya girib düşmən erməni və bolşevikləri oradan kürüyüb atdılar.

Buna qədər Moskvadakı bolşeviklərin lideri Lenin Qafqaz İslam Ordusunun Bakıya doğru irəlilədiyini bilincə, hər cür yola əl atırdı. Türklərə qarşı, Osmanlı Dövlətinin müttəfiqi olan Almaniyadan yardım istəyirdi. "Brest-Litovsk Müqaviləsinə əlavə" adlanan razılaşmaya görə, Almaniya Kür çayına qədər olan Azərbaycan torpaqlarının Sovetlərin tərkibində qalmasına kömək edəcək, bunun müqabilində Bakı neftinin yarısına sahiblənəcəkdi. Eləcə də Almaniya bu xəttə üçüncü ölkənin müdaxiləsinin qarşısını alacaqdı. Amma bədnam müqavilə imzalanmazdan bir gün əvvəl Bakıda Şaumyan hakimiyyəti devrildi. Məhəmməd Əmin Rəsulzadə dövlətlərarası konfransa getdiyi İstanbulda Almaniya ilə Rusiyanın həmin razılaşmasını rədd etdi, protest notasını Almaniya və digər ölkələrin təmsilçilərinə verdi. Notada Qafqaz xalqlarının uzun illər rus əsarətində çəkdiyi acılar açıq mətnlə göstərilir, Bakının Azərbaycanın ayrılmaz bir parçası olduğu tarixi, coğrafi və iqtisadi dəlillərlə izah edilirdi.





"26-lar" adlı bədii filmdən də göründüyü kimi, Ənzəlidən köməyə gələn ingilis ordusu elə də böyük dəstə deyildi. Bakıda hakimiyyəti ələ almış Sentrokaspi Diktaturası, ən azı, 20 min nəfərlik ingilis ordusunu gözləyirdi. Britaniyalıların Bakıya girməsi ermənilərin ürəyində ümid çırağı yandırmışdı. Gizli şəkildə dinlənilən telefon danışıqlarında onlar şəhəri, nəyin bahasına olursa-olsun, müdafiə edəcəklərini deyirdilər. Amma haqq işi uğrunda canından keçməyə hazır olan türklər buna bilmərrə yol vermədilər.

Hünərvər Mürsəl Paşa yerli ermənilərin danışıq üçün təmsilçi göndərmələri və şəhərin təslim olacağı təqdirdə heç kimin malına və canına xətər toxunmayacağı barədə təminat vermişdi (Xatırlayırıq ki, eynilə ötən il Qarabağda qalan etnik ermənilərə də Prezident İlham Əliyev belə bir mesaj vermişdi ki, Azərbaycan qanunlarına tabe olduqları təqdirdə burada qalıb yaşaya bilərlər). Həmin məktubun məzmunu Nuru Paşa vasitəsilə Baş Komandan Vəkili Ənvər Paşaya da bildirilmişdi. Ənvər Paşa isə ermənilərin Bakını qeyd-şərtsiz təslim edəcəkləri təqdirdə İrəvan bölgəsinə köçürüləcəklərinə söz vermişdi.

Bakı ətrafında halqanı daraldan Türk Qafqaz İslam Ordusu Sumqayıt, Xırdalan, Qobu, Ələt, Heybət dəmir yolu, Maştağa istiqamətlərində mühasirəni yararaq şəhərə daxil olurdu. "Sentrokaspi və Sovetlərin Müvəqqəti İcraiyyə Komitəsi Rəyasət Heyətinin Diktaturası" tərəfindən şəhərdən gəmi ilə qaçmağa çalışan 26-lar həbs edildilər və sonra Türkmənistanın Ağcaqum çölündə güllələndilər. Güclü həmlə ilə Bakının qərbindəki Qurd qapısı təpəsini ələ keçirən 13-cü Qafqaz alayı saat 14.30-da artıq Bakını görə bilirdi. Düşmən birlikləri Qurd qapısını əldən verməmək üçün bir neçə cəhd etdi, ancaq hər dəfə də ağır itki verərək, geri çəkildi. Şimal qrupu birlikləri 10-cu Qafqaz alayının 29-cu batalyonu Qurd qapısı təpəsi ilə Hacıhəsən kəndi arasındakı ərazidən hücuma keçmişdi. Dik yoxuşları çıxan türklər Salxana və Qışla yüksəkliklərini də qısa bir vaxt ərzində düşməndən təmizlədilər (Aydın məqsəd, saf amal naminə nə edilməz ki! Ondan düz 102 il sonra qəhrəman Azərbaycan əsgərləri yalçın qayalıqlarla Şuşa şəhərinə qalxmadılarmı?).

Nuru Paşanın əmri ilə Azərbaycan Ordusunun özək korpusu yaradıldı və Qafqaz İslam Ordusunun 15-ci piyada diviziyası ilə qüvvətləndirildi. Şərq Orduları Qrupu Komandanı Xəlil Paşanın da Bakıya gələrək hücumda şəxsən iştirak etməsi qərarlaşdırıldı və bu səbəbdən hücum zamanı erməni-bolşevik birləşmələri və Ənzəlidən gəlmiş ingilis silahlı qüvvələri heç nə edə bilmədilər.

Beləliklə, əvvəlcə Bakının ətrafı düşməndən təmizləndi. Şəhərə əsaslı hücumun sentyabrın 13-dən 14-nə keçən gecə, Qərb istiqamətindən başlanması qərara alındı. Düşməni çaşdırmaq üçün də bəzi tədbirlər görüldü. Bakıya hücumun şimaldan ediləcəyi görüntüsünü yaratmaq üçün cəbhədəki ordunun böyük bir bölüyü 3 sentyabrdan etibarən Yanardağ və Binəqədi ətrafına yığılmışdı. Bakı hökumətinin əlində olan təyyarələr hücum başlanana qədər hər gün kəşfiyyat uçuşları keçirir və türk əsgərinin şimal bölgəsinə cəlb olunduğunu müşahidə edirdi.

Qərargahdan "İrəli" əmri verilincə, birliklər, gecənin qaranlığında Heybət–Biləcəri dəmir yolu xəttinə doğru irəliləməyə başladılar. Hədəfdə düşmənin 1-ci müdafiə xətti idi. 56-cı piyada alayı saat 01-də Şabanı–Bakı yolunun şimalından, 9-cu Qafqaz alayı isə bu yolun cənubundan hücuma başladı. Tapşırıq uğurla yerinə yetirilərək, erməni, rus və ingilislərin 1-ci müdafiə xətti yarıldı. Bakı hücumunda qeyri-adi şövqlə döyüşən 56-cı alayın əsgərləri, komandirləri başda olmaqla Qurd qapısı cəbhəsindən qaçan düşmənə Bayıl həndəvərində daha bir ağır zərbə vurdu. 5-ci Qafqaz piyada diviziyasının uğurunun davamı kimi, Bakının Şimal cəbhəsindən hücuma keçən 15-ci piyada diviziyası da tapşırığı dürüst yerinə yetirdi. Nə bolşeviklər ciddi müqavimət göstərə bildilər, nə də Çanaqqalada türk əsgərinin hünərini görərək ağır məğlubiyyətə uğramış ingilislər. Ermənilərə verilən vaxt tamam olduqdan sonra onlar silahları ilə birlikdə təslim olmağa başladılar. İngilislər sübh tezdən gəmilərə minərək Bakıdan qaçdılar. Erməni və rus komandirləri ilə şəhər rəhbərləri də dəniz yolunu nicat yolu bildilər.

Nəhayət, türklərin Bakıya girməsi xəbəri, Hərbiyyə Naziri və Baş Komandan vəkili Ənvər Paşaya 16 sentyabrda bildirildi. Nuru Paşanın bununla bağlı şifrə teleqramı belə idi: "Allahın yardımı ilə Bakı şəhəri 30 saat davam edən şiddətli müharibədən sonra saat 9 radələrində zəbt edilmişdir. Bütün ordunun, xüsusilə, minbaşı Fəhmi bəyin komandası altındakı 56-cı alayın qəhrəmanlığı təqdirəlayiqdir". Həmin gün Nuru Paşa Güzdəkdəki müvəqqəti Ordu Qərargahından hərəkət edərək Bakıya daxil oldu. Komandirlər əvvəlcə Qırmızı kazarmanın yaxınlığında təşkil olunmuş rəsmi keçiddə iştirak etdilər. Podpolkovnik Süleyman İzzət bəyin rəhbərlik etdiyi paradda şəhərdəki asayişi təmin edən 56-cı alaydan başqa, cəbhədə döyüşən hərbi qüvvələrin hamısı iştirak etdi. Nuru Paşa Bakının qurtuluşu münasibəti ilə xalqa müraciət etdi (Burada 2020-ci il dekabrın 10-da Bakıda təşkil olunan Zəfər paradı və ondan öncə paytaxt küçələrində türk mehmetciklərinin qələbə marşları oxuyaraq məşq etmələrinin hər kəsə unudulmaz təsir bağışlaması yada düşür).

Özü də Bakının işğaldan qurtarıldığı gün Qurban bayramına təsadüf edib – xalq iki bayramı bir yerdə keçirib. Günortadan sonra 19–36 yaş arasında olan azərbaycanlı qazi milislər bayram şərəfinə 4 günlük məzuniyyətə buraxılıblar. Bakının xilası böyük bayrama səbəb olub. Məşhur mesenat Hacı Zeynalabdin Tağıyev türk ordusunun şərəfinə indiki Filarmoniya binasında möhtəşəm ziyafət təşkil edib, komandan Nuru Paşaya və digər qəhrəman sərkərdələrə hədiyyələr təqdim edib...

Tarix təkrar olunur. 2020-ci ildə Bakıda keçirilən Zəfər paradında Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandanımız İlham Əliyev deyib: "Erməni faşizmi yenidən ayağa qalxarsa, nəticə eyni olacaq". Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə Əhməd Cavadın, Nuru Paşanın və Mübariz İbrahimovun ruhlarının şad olduğunu söyləyərək, mübarizənin davam edəcəyini vurğulayıb.

Bəli, 1918-ci il sentyabrın 15-də Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından azad ediblər. Yenə də Türkiyə yanımızdadır, mənəvi yardımı ilə Qarabağdakı zəfərimizə dayaq olub, bugünkü uğurlarımızda da daim bizi dəstəkləyir. Dostlarımızın sevindiyi, düşmənlərimizin isə xar olduğu belə zəfər təntənələrimiz tariximizi şərəfləndirir.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Göygöldə "Moruq festivalı"



**Azərbaycanda ilk dəfə Göygöl rayonunda "Moruq festivalı" keçirilib. Şənliyi giriş nitqi ilə açan Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev bildirib ki, ölkəmizdə kənd təsərrüfatı məhsulları istehsalçılarına edilən güzəştlər və yardımlar aqrar sahənin dinamik inkişafını təmin edir. Rayonda moruqçuluq təsərrüfatının inkişaf etdiyini vurğulayan icra başçısı hər il təşkil olunacaq Moruq Festivalının aqrar və turizm sahələrinin inkişafına yardım edəcəyini qeyd edib.**



Türkiyənin Gəncə şəhərindəki baş konsulu Rəcəb Öztop aqroturizm potensialından düzgün istifadə, məhsulların brendləşməsi, satış marketinq işinin təşkili məsələlərinə toxunub. Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov isə aqrar sahədə keçirilən festival və sərgilərin əhəmiyyətini vurğulayıb. Dövlət Turizm Agentliyinin Mədəni irs və regional turizm şöbəsinin müdiri Elgün Cavadov aqrar sahədə festivalların daxili turizmin inkişafında və regionlarda məşğulluq səviyyəsinin artmasında rolundan bəhs edib. Festivala böyük marağın olduğunu deyən Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru Zəfər Qurbanov və digər natiqlər belə tədbirlərin milli-mənəvi dəyərlərin yaşadılması, fermerlərin yeni bilik və bacarıq əldə etməsində faydalı olduğunu vurğulayıb.

Göygöl rayonunun Keşkü kəndində 3 hektar ərazidə təşkil olunan festivalda ziyarətçilərə moruq istehsalı ilə daha yaxından tanış olmaq imkanı yaradılıb, yerli istehsalçılar tərəfindən təqdim olunan moruq sortlarının dequstasiyası və satışı təşkil edilib.

Xatırladaq ki, moruq xalq təbabətində ən geniş istifadə olunan giləmeyvələrdən sayılır. Çay kimi dəmlənmiş meyvələr soyuqdəymədə hərarət salan vasitə kimi istifadə edilir. Moruq tərkibində ən çox dəmir olan giləmeyvədir. Qlükoza və fruktoza ilə zəngin olduğuna görə ürək-damar və beyin patologiyası zamanı faydalı hesab olunur.

**Hamlet QASIMOV,**
**XQ-nin bölgə müxbiri**

**Göygöl**

# "Şuşa günləri"nin iştirakçıları Daşkənddə

**Şuşa ilə qardaşlaşmış Xivə şəhərində keçirilən "Şuşa günləri" başa çatdıqdan sonra Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyevlə ölkəmizdən gələn nümayəndə heyətinin görüşü olub.**



Heydər Əliyev, Azərbaycan–Özbəkistan Dostluq və Azərbaycan Dövlətçilik Tarixi muzeyləri ilə tanışlıqdan sonra mərkəzdə çay süfrəsi arxasında keçən görüşdə Hüseyn Quliyev Azərbaycan–Özbəkistan münasibətləri, Azərbaycan Prezidenti İlham Əliyevin bu il avqustun 22–23-də dost ölkəyə dövlət səfəri, imzalanan mühüm sənədlər haqqında məlumat verib, əməkdaşlığın yeni yüksək mərhələyə daxil olduğunu qeyd edib.

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin icraçı direktoru Tural Novruzovun Xivə şəhərində keçirilən görüşlər haqqında söhbət açıb, bu qədim şəhərlə qardaşlaşmanın siyasi-mədəni önəmini vurğulayıb. İşğala son qoyulandan sonra Azərbaycanın mədəniyyət paytaxtında aparılan tikinti, yenidənqurma, bərpa və abadlıq işlərindən danışan qonaq qeyd edib ki, bu qədim Azərbaycan şəhərində 196 tarixi abidə olub, onların əksəriyyətini erməni vandalları dağıdıblar. Artıq qədim Şuşa yenidən turizm şəhərinə çevrilir. Təkcə avqust ayında şəhərə 168 min turist gəlib.

Sonra nümayəndə heyəti Daşkəndin görməli yerləri ilə tanış olub.

**Qulu KƏNGƏRLİ,**
**XQ-nin xüsusi müxbiri**

**Daşkənd**

# Serbiyanın Azərbaycan qazına tələbatı artır

**Serbiya ölkəmizlə energetika sahəsində əməkdaşlığı genişləndirmək niyyətindədir. Bu məqsədlə yaxın vaxtlarda Bakı və Belqrad arasında Azərbaycan qazının əlavə tədarükü ilə bağlı Saziş imzalanacaq. Bu fikri Serbiyanın mədən və energetika naziri Dubravka Cedoviç Handanoviç "Srbijagas" şirkətinin prezidenti Duşan Bajatoviç ilə görüşündə səsləndirib.**



Serbiyanın Mədən və Energetika Nazirliyinin bununla bağlı açıqlamasında bildirilir ki, nazir D.Bayatoviç ilə "Banatski dvor" yeraltı qaz anbarının genişləndirilməsi və istilik mövsümünə hazırlıq məsələləri müzakirə edilib. Bu zaman həm Serbiya, həm də Macarıstanda qaz anbarlarının doldurulma səviyyəsindən məmnunluğu ifadə olunub. Nazir, həmçinin Azərbaycandan əlavə həcmlərin tədarükünün də razılaşdırıldığını diqqətə çatdırıb.

Serbiyalı nazir qeyd edib ki, noyabrda "Banatski dvor" yeraltı qaz anbarında 750 milyon kubmetr, Macarıstanın qaz anbarında isə 163 milyon kubmetr qaz olacaq. Onun sözlərinə görə, həmçinin tələbata uyğun olaraq Azərbaycandan alınacaq əlavə həcmlər barədə də razılığa gəlinib və bununla bağlı saziş yaxın vaxtlarda rəsmiləşdiriləcək.

Xatırladaq ki, 2023-cü il noyabrın 15-də ARDNŞ ilə Serbiyanın "Srbijaqas" şirkəti arasında Azərbaycan qazının bu ölkəyə tədarükü ilə bağlı müqavilə imzalanıb. Sözügedən sənədə əsasən, 2024-2026-cı illərdə Serbiyaya 400 milyon kubmetrə qədər Azərbaycan qazının tədarükü nəzərdə tutulur. 2027-ci ildən etibarən isə bu həcm artırıla bilər. Yeri gəlmişkən, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov sentyabrın 2-də Bakıda serbiyalı həmkarı Marko Curiçlə danışıqların yekunlarına dair mətbuat konfransında bildirib ki, Azərbaycan Serbiyaya tədarük olunan qazın həcmini mərhələli şəkildə ildə 1 milyard kubmetrə çatdırmağı planlaşdırır.

# İlin əvvəlindən 1,5 tona yaxın qızıl istehsal edilib

**2024-cü ilin yanvar–avqust ayları ərzində Azərbaycanda 1476,4 kiloqram qızıl və 2061,9 kiloqram gümüş istehsal edilib. Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkədə qızıl istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,3 faiz artıb, gümüş istehsalı isə 24,1 faiz azalıb.**

Bu il sentyabr ayının 1-nə Azərbaycanda gümüş və qızıl üzrə hazır məhsul ehtiyatı müvafiq olaraq 593,9 kiloqram və 278 kiloqram təşkil edib.



# Kənd dəstək layihələrindən güc alır

## *8 ayda aqrar sektorda 8,7 milyard manatlıq məhsul istehsal edilib*

**Son illər Azərbaycanda aqrar sahənin potensialından səmərəli istifadə olunması məsələsi getdikcə daha çox aktuallıq kəsb edir. Təsadüfi deyil ki, ölkədə kənd təsərrüfatının inkişaf etdirilməsi, bu sahədə fəaliyyətin təşviq edilməsi məqsədilə çoxşaxəli dəstək tədbirləri həyata keçirilir.**



Bu baxımdan iqtisadiyyatın mühüm sahələrindən sayılan kənd təsərrüfatının modernləşdirilməsi, aqrar sektorun inkişafını ləngidən problemlərin həllinə sistemli və kompleks yanaşılması, dövlətin inzibati və maliyyə resurslarından səmərəli istifadə olunması istiqamətində reallaşdırılan tədbirlər diqqət çəkir. Ötən müddətdə dövlətin bu sahədə həyata keçirdiyi ünvanlı, konkret hədəflərə yönələn stimullaşdırıcı tədbirləri aqrar sektorda təşəbbüskarlığa geniş meydan açıb. Məhz bunun nəticəsidir ki, son illər iri biznes qruplarının, eləcə də kiçik və orta sahibkarların kənd təsərrüfatı sektorunda xüsusi fəallığı müşahidə olunur.

Azərbaycan əhalisinin, təqribən, yarısının yaşadığı regionlarda kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində həyata keçirilən istənilən tədbir yerlərdə məşğulluğun təminatına mühüm töhfə verir. İqtisadiyyatın qeyri-neft sektorunun inkişafını sürətləndirən fermerlər daxili bazarda məhsul bolluğuna şərait yaratmaqla yanaşı, ölkənin ixrac potensialının artırılmasında da yaxından iştirak edirlər. Bu da ölkədə bitkiçilik və heyvandarlıq məhsullarının istehsalına, ümumi ixracda kənd təsərrüfatı mallarının payının artmasına səbəb olur.

Aqrar sektorda müşahidə olunan müsbət dinamika 2024-cü ilin ötən dövründə də davam edib. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar–avqust aylarında Azərbaycanda kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 8 milyard 723 milyon manat təşkil edib. Bu isə əvvəlki ilin eyni dövrünə nisbətən 0,8 faiz çoxdur. Ümumi məhsulun 4 milyard 528 milyon manatı bitkiçilik, 4 milyard 195 milyon manatı isə heyvandarlıq məhsullarının payına düşüb. Bitkiçilik və heyvandarlıq məhsullarının istehsalı ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 0,3 faiz və 1,3 faiz artıb.

Komitənin məlumatına əsasən, sentyabrın 1-nə qədər tarlalardan qarğıdalı da daxil olmaqla 3 milyon 26 min ton və ya ötən ilin eyni dövrünə nisbətən 0,8 faiz çox dənli və dənli paxlalı bitkilər, 1 milyon 498,2 min ton (0,8 faiz çox) tərəvəz, 503,4 min ton (1,7 faiz çox) meyvə və giləmeyvə, 482,3 min ton (11,9 faiz çox) bostan məhsulları, 25,8 min ton (14,9 faiz çox) günəbaxan, 24,5 min ton (2,7 dəfə çox) şəkər çuğunduru, 3,3 min ton (56,6 faiz çox) tütün, 901,4 ton (1,8 faiz çox) yaşıl çay yarpağı yığılıb. Bununla belə, hesabat dövründə kartof, pambıq və üzüm tədarükündə azalma qeydə alınıb.

Bu ilin 8 ayında ölkədə quş əti də daxil olmaqla diri çəkidə 379,2 min ton ət, 1 milyon 489,2 min ton süd, 1572,5 milyon ədəd yumurta, 14,5 min ton yun və 239,4 ton barama istehsal olunub. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə ət istehsalı 1 faiz, süd istehsalı 0,5 faiz, yumurta istehsalı 6,2 faiz artıb. Hesabat dövründə yun istehsalı 1,8 faiz, barama istehsalı isə 32,9 faiz azalıb.

Kənd təsərrüfatı məhsulları ixracının son bir neçə ildən etibarən başlayan yüksək artım dinamikası cari ilin ötən dövründə də müşahidə olunub. Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, bu ilin yanvar–iyul aylarında Azərbaycan 540 milyon ABŞ dolları dəyərində kənd təsərrüfatı məhsulları ixrac edib. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 8,5 faiz çoxdur. Nazirliyin məlumatına əsasən, hazırda Azərbaycandan Avropa ölkələrinə ixrac olunan kənd təsərrüfatı və ərzaq məhsullarının, təqribən, 90 faizini fındıq ləpəsi, az bir hissəsini isə nar şirəsi təşkil edir.

Bununla belə, aqrar sahə üzrə ixracyönümlü meyvəçilik sahələri kimi fındıqçılıq və narçılığın daha da genişləndirilməsi üçün potensial olduqca yüksəkdir. Son illər, həmçinin gilas, albalı, nektarin, gavalı, ərik kimi çəyirdəkli meyvələrin də ixracında yüksək dinamika müşahidə olunur. Bu məhsulların istehsalının artırılmasına nail olmaqla ənənəvi Rusiya ilə yanaşı, Çin və digər Asiya ölkələrinin bazarlarına da çıxmaq mümkündür.

Göründüyü kimi, aqrar sahədə mövcud potensialdan səmərəli istifadə olunması, əkin sahələrinin genişləndirilməsi, eləcə də heyvandarlığın inkişaf etdirilməsi üçün göstərilən dövlət dəstəyi ölkənin ərzaq təhlükəsizliyinin təminatı ilə yanaşı, ixrac potensialının da artırılmasına mühüm töhfələr verir. Gələcəkdə isə kənd təsərrüfatının hər il orta hesabla 4 faiz artacağı proqnozlaşdırılır. Elə Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasında da aqrar sektor, sənaye və xidmət sahələrində müasir texnologiyaların tətbiqi ilə məhsuldarlığın artacağı, həmçinin yeni iş yerlərinin yaradılacağı qeyd olunub.

# Pirallahı "Sənaye parkı adası"na çevrilir

## *Ötən müddətdə burada 10,5 min yeni iş yeri açılıb*

**İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan sənaye zonaları və parkları ölkədə qeyri-neft sektorunun inkişafına mühüm töhfələr verir. Ölkənin sənaye zonalarında indiyədək ümumi investisiya dəyəri 8 milyard manat olan 151 sahibkarlıq subyektinə rezident statusu verilib. Sahibkarlar sənaye zonalarına 6,8 milyard manat investisiya yatırıb və 10 min 500-dən çox daimi iş yeri yaradıblar.**




Pirallahı Sənaye Parkının fəaliyyəti də bu baxımdan diqqət çəkir. Cari ilin birinci yarısında 7,5 milyon manatlıq məhsul satılıb. Ümumilikdə isə, fəaliyyətə başladığı vaxtdan indiyədək sənaye parkının rezidentləri 53 milyon manatlıq satış həyata keçiriblər. İqtisadi Zonaların İnkişafı Agentliyindən verilən məlumata görə, hazırda Pirallahı Sənaye Parkında rezidentlər tərəfindən müasir texnologiyaların tətbiqi ilə yüksək keyfiyyətli, beynəlxalq standartlara cavab verən dərmanların istehsalı həyata keçirilir.

Sənaye parkında şpris (1, 2, 5, 10, 20, 50 ml), sterilləşmiş damardaxili kateter, sterilləşmiş infuziya dəsti, lateks steril cərrahi əlcək, diabeton MR və s. məhsullar buraxılır. İstehsal prosesində istifadə olunan texnologiyalar isə, əsasən, Almaniya, İtaliya Türkiyə, İsveçrə kimi qabaqcıl ölkələrə məxsusdur. Növbəti mərhələdə isə rezidentlər tərəfindən burada şəkəri təyin edən cihazlar, birdəfəlik üçkomponentli şprislər, 42 adda müxtəlif doza və qablaşdırma olmaqla, ümumilikdə, 7 növdə (tablet, kapsul, jelatin kapsul, toz suspenziya, sirop və s.) dərman məhsulları, bioloji aktiv qida əlavələri və digər dərman vasitələri istehsal ediləcək.

Müəssisədə istehsal olunan məhsullar, əsasən, daxili bazarın tələbatının ödənilməsinə yönəldilib. Gələcəkdə isə sənaye parkının istehsalı olan müxtəlif növ məhsulların Rusiya, Türkiyə, Qazaxıstan, Gürcüstan, Qırğızıstan, Belarus, İran və s. ölkələrə ixracı nəzərdə tutulur. Son zamanlar sahibkarların Pirallahı Sənaye Parkına marağının getdikcə artması müşahidə olunur. Müraciətlər isə, əsasən, dərman istehsalı sahəsi ilə bağlıdır. Parkın rezidenti olmaq istəyən sahibkarlar tərəfindən təqdim edilən bir çox layihələrə İqtisadi Zonaların İnkişafı Agentliyində baxılır.

İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Pirallahı Sənaye Parkı ölkə Prezidenti İlham Əliyevin 2016-cı il 14 sentyabr tarixli sərəncamına əsasən yaradılıb. Sənaye parkının yaradılmasında məqsəd ölkədə qeyri-neft sənaye sahələrinin davamlı inkişafının təmin edilməsi, bu sahədə sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsi, qabaqcıl texnologiyalara əsaslanan rəqabət qabiliyyətli və innovativ sənaye müəssisələrinin yaradılması, əczaçılıq məhsullarının idxalından asılılığın azaldılması, əhalinin dərman vasitələrinə tələbatının ödənilməsində yerli istehsalın təşviq edilməsindən, eləcə də istehsal sahəsində əhalinin məşğulluğunun artırılmasından ibarətdir. 30 hektar ərazidə yaradılmış sənaye parkında sahibkarlar üçün zəruri infrastruktur (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılıb.

Pirallahı Sənaye Parkı fəaliyyətə başladığı vaxtdan etibarən ölkədə əczaçılıq sənayesinin inkişafına, əhalinin dərman vasitələrinə olan tələbatının ödənilməsinə, yerli istehsalın və məşğulluğun təşviqinə mühüm töhfələr verib. İndiyədək sənaye parkında investisiya kapitalı 121 milyon manatdan çox olan 7 sahibkarlıq subyekti rezidentlik statusu alıb. Artıq onlardan 2-si istehsal fəaliyyətinə başlayıb. Ümumilikdə isə, rezidentlər tərəfindən sənaye parkına indiyədək 40 milyon manatdan artıq investisiya yatırılıb. Bunun da nəticəsində 140-dan artıq daimi iş yeri yaradılıb. Növbəti mərhələdə isə mövcud layihələr üzrə sənaye parkına əlavə olaraq 80 milyon manatdan çox investisiyanın qoyulması, 400-dən artıq daimi iş yerinin yaradılması nəzərdə tutulur.

Bu gün ölkəmizin bütün sənaye parklarının qarşısına innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişaf etdirilməsi, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkarlığın dəstəklənməsi mühüm vəzifə kimi qoyulub. Bütün bunlarla yanaşı, iqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun davamlı inkişafının gerçəkləşdirilməsi, ölkənin yerli və xarici investisiyalar üçün əlverişliliyinin yüksəldilməsi, əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılması kimi məsələlərə xüsusi önəm verilib.

Qanunvericiliyə uyğun olaraq, sənaye parklarında indiyədək bir sıra stimullaşdırıcı tədbirlər tətbiq olunub. Məsələn, Vergi Məcəlləsinə və "Gömrük tarifi haqqında" Qanuna uyğun olaraq, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 10 il müddətinə gömrük rüsumlarından azad olunurlar.



# "AzərGold"un Daşkəsəndə kartofçuluğa töhfəsi

**"AzərGold" Qapalı Səhmdar Cəmiyyətinin təşkilatçılığı və Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə "Daşkəsən rayonunda kartofçuluq təsərrüfatının inkişafına dəstək" layihəsinin icrası uğurla başa çatdırılıb.**

Bu münasibətlə rayonda yerləşən Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsində layihədə iştirak etmiş kartofçuluq təsərrüfatı sahiblərinin təltifolunma mərasimi keçirilib. Tədbirdə "AzərGold" QSC, Kənd Təsərrüfatı və İqtisadiyyat nazirlikləri, Daşkəsən Rayon İcra Hakimiyyəti, Tərəvəzçilik Elmi- Tədqiqat İnstitutunun nümayəndələri, eləcə də layihəyə cəlb edilmiş mütəxəssis və kartofçu fermerlər iştirak ediblər.

Mərasimdə layihənin "AzərGold" QSC tərəfindən korporativ sosial məsuliyyət fəaliyyəti çərçivəsində Daşkəsəndə ənənəvi kənd təsərrüfatı sahələrindən hesab olunan kartofçuluğun inkişaf etdirilməsi, sahibkarlıq növü kimi təşviqi və dəmyə üsulu ilə kartof istehsalının artırılmasına töhfə vermək məqsədilə həyata keçirildiyi bildirilib. Layihəyə "Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi"ndə qeydiyyatda olan, əkinə yararlı minimum 1 hektar torpaq sahəsinə malik Quşçu və Zəylik kənd fermerlərinin cəlb edildiyi diqqətə çatdırılıb.

Layihə çərçivəsində fermerlərə Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun mütəxəssisləri tərəfindən nəzəri və praktiki təlimlərin keçirildiyi, həmçinin 10 hektar sahəyə yerli iqlim şəraitinə uyğun "Telman", "Əmiri 600" toxumlarının səpildiyi, müvafiq aqro-texniki qulluğun göstərildiyi bildirilib. Qeyd olunub ki, mövsüm ərzində havanın qeyri-sabit keçməsinə baxmayaraq, təsərrüfatlardan 100 tona yaxın məhsul yığılıb. Layihə çərçivəsində yığılmış məhsulun 85 faizi fermerlərə ayrılıb. Məhsulun 15 faizi isə Daşkəsən rayonunda yaşayan aztəminatlı ailələr arasında bölüşdürülüb.

Diqqətə çatdırılıb ki, strateji məhsullardan sayılan kartof istehsalının artırılması üçün əkin sahələrinin genişləndirilməsi, təsərrüfatların inkişaf etdirilməsi dövlət səviyyəsində daim diqqətdə saxlanılır. Kartofçuluq rayonlarında belə stimullaşdırıcı layihələrin icrasının ümumi işə əlavə töhfələr verdiyi vurğulanıb.

Sonda təlim və praktiki məşğələləri uğurla tamamlayan kartofçu fermerlər sertifikatlarla təltif ediliblər.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




# “Yaşıl” enerjiyə keçid uğurla davam edir

## *8 ayda ölkədə 19 milyard 235,4 milyon kVt/saat alternativ güc yaradılıb*

**Energetika Nazirliyi mətbuat xidmətinin məlumatına görə, cari ilin yanvar–avqust aylarında respublikada elektrik enerjisinin istehsalı 19 milyard 235,4 milyon kVt/saat olub. Bu dövrdə elektrik enerjisi istehsalı İstilik Elektrik Stansiyalarında (İES) 16 milyard 463,6 milyon kVt/saat, Su Elektrik Stansiyalarında (SES) 2 milyard 138,4 milyon kVt/saat, digər mənbələr üzrə isə 633,4 milyon kVt/saat təşkil edib.**



Yanvar–avqust aylarında külək elektrik stansiyalarında 37,9 milyon kVt/saat, günəş elektrik stansiyalarında 424,3 milyon kVt/saat, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 171,2 milyon kVt/saat elektrik enerjisi istehsal olunub. Beləliklə, “yaşıl” enerji mənbələri üzrə elektrik enerjisi istehsalı ötən ilin müvafiq dövrünə (1 milyard 531,1 milyon kVt/saat) nisbətən 1 milyard 240,7 milyon kVt/saat artaraq 2 milyard 771,8 milyon kVt/saat təşkil edib.

Bu müddətdə elektrik enerjisinin istehsalı “AzərEnerji” ASC üzrə 16 milyard 975 milyon kVt/saat (İES-lərdə 14 milyard 989 milyon kVt/saat, SES-lərdə 1 milyard 986 milyon kVt/saat), Naxçıvan MR Dövlət Energetika Xidməti üzrə 334,5 milyon kVt/saat (İES-lərdə 151,7 milyon kVt/saat, SES-lərdə 139,7 milyon kVt/saat, Günəş ES-də 43,1 milyon kVt/saat), “Azərişıq” ASC üzrə külək elektrik stansiyalarında 28,5 milyon kVt/saat, müstəqil elektrik stansiyaları üzrə isə 1 milyard 897,4 milyon kVt/saat təşkil edib. Hesabat dövründə elektrik enerjisinin ixracı 858,9 milyon kVt/saat, idxalı isə 125,5 milyon kVt/saat olub.

Qeyd edək ki, cari ilin avqust ayında respublika üzrə elektrik enerjisinin istehsalı 2 milyard 966,3 milyon kVt/saat olub. Bu dövrdə elektrik enerjisinin ixracı 338 milyon kVt/saat, idxalı isə 13,4 milyon kVt/saat təşkil edib.

Yeri gəlmişkən, Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) 2024-cü il üzrə hesabatına əsasən, Azərbaycan 2014-2023-cü illər ərzində “Yaşıl enerji” ehtiyatlarını 567 meqavat artıraraq 1688 meqavata çatdırıb. Sənədə görə, 2023-cü ildə respublikada hidroenergetika gücü 2014-cü illə müqayisədə 224 meqavat artaraq 1302 meqavata çatıb. Hesabat dövründə külək enerjisinin gücü 2014-cü ildəki 3 meqavatdan 2023-cü ildə 67 meqavata, günəş enerjisi 2 meqavatdan 282 meqavata yüksəlib. “Yaşıl enerji”nin digər hissəsi isə bərk bioyanacaq, bərpa olunan tullantılar, bioqazla işləyən güclərdən alınan bərpaolunan ehtiyatın payına düşüb.

Azərbaycanın enerji sistemində bərpaolunan enerji mənbələrinin (o cümlədən su elektrik stansiyaları) payı 2014-cü ildəki 15,2 faizdən 2023-cü ilin sonuna 20,3 faizə yüksəlib.

Bütün bu göstəricilər deməyə əsas verir ki, respublikamızda reallaşdırılan sosial-iqtisadi inkişaf strategiyası ətraf mühitin mühafizəsi istiqamətində ardıcıl və səmərəli tədbirlərin görülməsinə əlverişli şərait yaradır. Bunun nəticəsidir ki, hazırda ölkəmizdə “yaşıl” enerji növləri uğurla gerçəkləşdirilir və “yaşıl” enerjinin dünya bazarlarına nəqli enerji siyasətinin yeni prioritet istiqaməti kimi diqqətdə saxlanılır.

Təmiz ekoloji mühitin gerçəkləşdirilməsi məqsədilə mövcud təbii resursların dayanıqlı və səmərəli istifadəsi, tullantıların idarə edilməsi ilə bağlı infrastrukturun yaradılması istiqamətində də davamlı layihələr gerçəkləşdirilir. Azərbaycanın 2050-ci ilə qədər istixana effekti yaradan qazların emissiyası həcminin 40 faizə qədər azaldılmasının, habelə düşməndən təmizlənən ərazilərimizdə “təmiz 0” emissiya zonasının yaradılmasının şərti hədəf kimi götürülməsi də bunun bariz ifadəsidir.

Son illər ölkəmizdə sözügedən sahədə bir sıra mühüm layihələr reallaşdırılıb. Məsələn, MDB-də ən böyük və Xəzər dənizi regionunda ilk sənaye miqyaslı günəş elektrik stansiyası – 230 MVt-lıq Qaradağ Günəş Elektrik Stansiyası (GES) istismara verilib. Eyni zamanda, həmin stansiyanın açılışı zamanı digər yeni layihələrin də əsası qoyulub: “Masdar” şirkəti ilə Neftçalanın Bankə qəsəbəsində 315 MVt-lıq, Biləsuvarda isə 445 MVt-lıq GES və Abşeron-Qaradağ rayonları ərazisində 240 MVt-lıq külək elektrik stansiyasının (KES) tikintisi ilə bağlı, ümumilikdə, 1 qiqavat bərpaolunan enerji mənbəyinin istismara buraxılmasını özündə ehtiva edən 3 yeni layihə imzalanıb. Bərpaolunan enerjinin payı isə hazırda 17 faizə yüksəlib.

Respublikada “yaşıl enerji”nin reallaşdırılması ilə bağlı qısa müddətdə normativ hüquqi bazanın formalaşdırılması ilə bağlı da xeyli iş görülüb. “Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında” qanundan irəli gələn 4 alt qanunvericilik aktı təsdiqlənib. “Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası” əsasında bağlanan müqavilələr və keçiriləcək hərraclarla bağlı hüquqi çərçivə müəyyənləşdirilib. Bununla da investorların səmərəli fəaliyyətinə əlverişli zəmin yaradılıb. Eyni zamanda, fəal istehlakçıların dəstəklənməsi və “yaşıl” sertifikatlarla bağlı qaydalar təsdiqlənib. Bütün bunlarla bərabər, bərpaolunan enerji mənbələri üzrə informasiya sistemi formalaşdırılaraq artıq istifadəyə verilib.

Hazırda ölkəmizdə “yaşıl” enerjidən istifadənin genişləndirilməsi məqsədilə Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlıq layihələri, o cümlədən dənizdə külək enerjisi üzrə Yol Xəritəsi, elektrik enerjisi şəbəkəsinin gücləndirilməsi və bərpaolunan enerji ixracı planları, “yaşıl” enerjinin Xəzərdən Avropaya və Naxçıvandan Türkiyəyə ixracı, enerji keçidi, enerji effektivliyi, “yaşıl” hidrogen, elektromobillik və digər məsələlər haqqında danışıqlar aparılır. Ümumiyyətlə, “yaşıl” inkişaf və qlobal iqlim hədəflərinə uyğun olaraq layihələrin vaxt itirmədən və səmərəli şəkildə həyata keçirilməsi məsələsi daim diqqətdə saxlanılır.

**COP29-un “Yaşıl” Zonası üçün açıqlanan ilk rəsmi tərəfdaşlar sırasında enerji keçidi üzrə “SOCAR Green”, strateji təsir üzrə “PASHA Holding” və dayanıqlı inkişaf üzrə isə “Azersun Holding” kimi Azərbaycan şirkətləri yer alır. Bu tərəfdaşlıq adları çəkilən şirkətlərin dayanıqlı fəaliyyət və qlobal iqlim hədəflərinə kollektiv sadiqliyini nümayiş etdirir.**

# COP29 “Yaşıl” Zonasının ilk tərəfdaşları




COP29 Azərbaycan Əməliyyat Şirkətinin (ƏŞ) mətbuat ofisindən verilən məlumata görə, yerli tərəfdaşlar Azərbaycanın Milli Öhdəlik Proqramında iştirak edirlər. Proqramın məqsədi ƏŞ-in təklif etdiyi məsləhət və təlim sessiyalarında iştirak etməklə, peşəkar bacarıqların və resursların idarə olunmasını təkmilləşdirmək üçün iqlim hədəflərinə nail olunması, gələcək ekoloji, sosial və korporativ idarəetmə strategiyalarının formalaşdırılması və yerli tərəfdaşlıq meyarlarına uyğunluq baxımından Azərbaycan şirkətlərinin daxili potensialının qiymətləndirilməsidir.

Yaradılan bu imkandan istifadə etməklə COP29 “Yaşıl” Zonasının tərəfdaşları qlobal iqlim siyasəti ilə bağlı fəaliyyətlərini genişləndirəcək, dayanıqlılıq üzrə səylərini ön plana çıxaracaq və öz əsas biznes sahələrində iqlim fəaliyyətinə keçidi dəstəkləyəcəklər. Bu şirkətlər COP29 tədbirinin tərəfdaşı olmaqla ekoloji siyasətlərinin təkmilləşdirilməsində və 1,5 dərəcə hədəf baxımından qlobal icmalara dəstək göstərilməsində üzərlərinə düşən vəzifələri gerçəkləşdirəcəklər.

“Yaşıl” Zonada COP29 tərəfdaşlarına builki sərgilərdə iştirak edən qlobal şirkətlər də qoşulacaq. Bu şirkətlər arasında iqlim baxımından təmiz məhsul və müvafiq həll variantlarını nümayiş etdirən müxtəlif təşkilatlar da yer alacaq.

Tərəfdaşların birgə səyləri sayəsində “Yaşıl” Zona iqlim fəaliyyətlərinin təşviqi üçün bütün maraqlı tərəflərin bir araya gələrək təcrübə və bilik mübadiləsi apardıqları platformaya çevriləcək. Öz məhsul və xidmətlərini sərgiləyəcək əsas beynəlxalq təşkilatlarla yanaşı, “Yaşıl” Zonada, həmçinin müxtəlif təqdimatlar, seminarlar, brifinqlər, şəbəkələşmə imkanları və musiqi tədbirləri kimi geniş fəaliyyətləri ehtiva edən məqsədyönlü proqramlar da keçiriləcək.

COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və Əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova ilk “Yaşıl” Zona tərəfdaşlarının elan edilməsi ilə bağlı qeyd edib: “Mən “SOCAR Green”, “Pasha Holding” və “Azersun Holding” şirkətlərini Azərbaycanda keçiriləcək COP29 tədbirində “Yaşıl” Zonanın ilk rəsmi tərəfdaşları kimi salamlayıram. Builki COP beynəlxalq iqlim siyasətlərinin müzakirəsi, iqlim fəaliyyətinin təşviqi və həm dayanıqlı, həm də davamlı gələcək naminə qlobal əməkdaşlıq üçün mühüm platforma olacaq. “Yaşıl” Zona tərəfdaşlarımız COP29 çərçivəsində bu ambisiyanı həyata keçirməyimizə dəstək baxımından mühüm rol oynayacaqlar və biz faydalı iqlim fəaliyyəti naminə sıx əməkdaşlıq edəcəyimizə ümid bəsləyirik”.

# İqlim savaşı qlobal həmrəyliyi zəruriləşdirib

## *İtki və Zərər Fondu isə maliyyə mənbələri axtarışındadır*

**COP29 iqlim konfransına hazırlıq çərçivəsində Yeni Kollektiv Kəmiyyət Məqsədi üzrə xüsusi işçi qrupun 3-cü iclasında dünyanın 30-a yaxın ölkəsindən müşahidəçi qismində qeyri-hökumət təşkilatları iştirak ediblər.**

İşçi qrupun iştirakçıları Paris Sazişinə, Kyoto Protokoluna və BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına tərəf dövlətlərin nümayəndələri və konvensiya müşahidəçiləri inkişaf etməkdə olan ölkələrin ehtiyaclarını və prioritetlərini nəzərə alan ədalətli və iddialı iqlim maliyyəsi üzrə müzakirə aparıblar. Bütövlükdə isə, sözügedən tədbir COP29 danışıqlarında iddialı məqsədlərə doğru irəliləyiş əldə etmək baxımından böyük fürsət olub.



Xatırladaq ki, Yeni Kollektiv Kəmiyyət Məqsədi Paris Sazişinin maliyyə tələblərini yerinə yetirmək üçün təsis edilib. Bu təşəbbüs inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyi ilə mübarizədə yardım göstərmək və uyğunlaşmaq məqsədilə lazımi maliyyə dəstəyini artırmağa yönəlib. Qurum iqlim dəyişikliyinin təsirlərinə daha davamlı olan iqtisadiyyatların qurulmasına yardım göstərməklə yanaşı, maliyyə resurslarının şəffaf və səmərəli istifadəsini də təmin edir. Eyni zamanda, bu məqsəd iqlim maliyyələşdirilməsində 2025-ci ildən sonrakı dövr üçün yeni kəmiyyət hədəflərini müəyyənləşdirir.

İqlim maliyyələşməsi ilə bağlı daha bir tədbir isə gələn həftə keçiriləcək. Belə ki, sentyabrın 18-20-də Azərbaycan iqlim maliyyəsində yeni yaradılmış İtki və Zərər Fondunun idarə heyətinin 3-cü iclasına ev sahibliyi edəcək. Məlumat üçün bildiririk ki, bu fond maliyyə dəstəyi ilə yanaşı, iqlim ədalətinə, dəyişmələrə ən həssas olanlarla həmrəyliyə və ən çox ehtiyac duyulan yerdə maddi yardımın çatdırılmasını hədəfləyir.

Son zamanlar biz dünyada iqlim dəyişikliyinin təsirlərinin getdikcə daha dağıdıcı hala gəldiyini müşahidə edirik. Yer kürəsində yaşayan icmalar, xüsusən də inkişaf etməkdə olan dövlətlər və kiçik ada ölkələri iqlimlə bağlı fəlakətlərin – dəniz səviyyəsinin qalxması, şiddətli quraqlıqlar, daşqınlar və getdikcə qeyri-sabit hava şəraiti kimi ağır fəsadları olan hadisələr yaşayırlar. Bu təsirlər həyatı və ekosistemləri təhdid edir. Artıq çoxları üçün itki və zərər gündəlik reallığa çevrilib.

Hazırda dünya dövlətlərinin ümumi vəzifəsi ən çox təsirə məruz qalan əhalinin təcili ehtiyaclarını ödəmək üçün bu fondun səmərəli şəkildə səfərbər edilməsini, ədalətli şəkildə bölüşdürülməsini və tam fəaliyyət göstərməsini gerçəkləşdirməkdir. Bu, iqlim böhranına ən az “töhfə vermiş”, lakin ən böyük təsirlərə məruz qalan ölkələrdə dayanıqlılığın yaradılması və bərpanın dəstəklənməsi istiqamətində mühüm addımdır.

İqlim təsirlərinin aktuallığı bizdən cəld və çevik hərəkətləri reallaşdırmağı tələb etdiyindən maliyyə resursları mümkün qədər tez və səmərəli şəkildə təmin olunmalıdır. Hazırkı şəraitdə itki və zərərə ən çox həssas olan icmalar beynəlxalq dəstək əldə etməkdə tez-tez sistemli problemlərlə üzləşirlər. Fondun strukturunun inklüzivliyini, eləcə də şəffaflığını təmin edərək ən həssas olan kiçik ada, eləcə də inkişaf etməkdə olan dövlətlərə, ən az inkişaf etmiş ölkələrə və yerli icmalara həddindən artıq inzibati tədbirlər həyata keçirilmədən ehtiyac duyduqları resursları almağa imkan verilməlidir. İcmaların bərpa olunması, yenidən qurulması və gələcək risklərə uyğunlaşması üçün vəsaitlərin ədalətli şəkildə bölüşdürülməsi və vaxtında əlçatan olması reallaşdıran mexanizmlərə uyğun qurulmalıdır.

Yeri gəlmişkən, Azərbaycan COVİD-19 pandemiyası dövründə vaksin ədalətsizliyi ilə mübarizə aparmış, bu istiqamətdə inkişaf etmiş ölkələri aşağı gəlirli və az inkişaf etmiş ölkələrin vaksin ehtiyacının qarşılanmasına çağırmışdı. Dövlətimiz təkcə öz xalqının rifahını deyil, eyni zamanda, 30-dan artıq ölkədə koronavirusla mübarizənin dəstəklənməsi üçün humanitar və maliyyə yardımı göstərmişdi. 4 ölkəyə təmənnasız olaraq 150 min doza vaksin göndərilmişdi. Azərbaycan dəfələrlə açıq şəkildə zəngin dövlətlərin “peyvənd millətçiliyi”nə öz etirazını bildirmiş və dünya əhalisinin vaksinlərə bərabər əlçatanlığının təmin edilməsi ilə bağlı çağırışlar etmişdi. Bu addım BMT tərəfindən alqışlanmış, nümunə olaraq göstərilmişdi.

İndi isə Azərbaycan dünya dövlətlərini iqlim maliyyəsinin ədalətli bölgüsü ilə bağlı razılaşma əldə olunmasına çağırır. Ümumbəşəri problem olan iqlim dəyişikliyi və qlobal istiləşmənin qarşısı yalnız dünya dövlətlərinin həmrəyliyi və birgə səyi nəticəsində alına bilər. Ölkəmiz planetimizin qorunmasına, yer üzərində yaşayan canlıların, ümumilikdə, Yer kürəsində həyatın xilaskarı olmaq üçün təşəbbüslər irəli sürür. Dövlətimizin bu müqəddəs missiyanı layiqincə yerinə yetirəcəyinə əminik.

***Pərvanə VƏLİYEVA,***
***COP29 Təşkilat Komitəsinin üzvü,***
***“Sağlamlığa xidmət” İctimai Birliyinin icraçı direktoru***

# “Xızı–Abşeron” KES-nin tikintisinə başlanıb

**“ACWA Power” şirkətinin məlumatına görə, Xızı və Abşeron rayonlarında hazırda tikintisi aparılan “Xızı–Abşeron” külək elektrik stansiyası gələn ilin ortalarında istismara veriləcək.**



Azərbaycanın ilk, Qafqazın isə bu ən böyük külək enerji stansiyası 240 meqavatt gücündə olacaq. Stansiya illik 893 geqavatt-saat təmiz enerji istehsal edəcək və karbon emissiyalarını illik 400 min tondan çox azaldacaq. 25 il müddətinə “tikinti-sahiblik-istismar” prinsipi ilə fəaliyyət göstərəcək və Səudiyyə Ərəbistanının “ACWA Power” şirkəti idarə edəcək.

Hazırda Abşeron və Xızı rayonlarında stansiyanın giriş yolları salınır, körpülər tikilir, külək turbinlərinin təməlləri qoyulur və parallel olaraq elektrik yarımstansiyasın inşası davam etdirilir. Ümumilikdə, layihənin icrasının 2025-ci ilin ortalarına qədər yekunlaşdırılacağı nəzərdə tutulur.

Xatırladaq ki, “Xızı–Abşeron” layihəsi Azərbaycanın Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkəti arasında külək enerjisi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması ilə həyata vəsiqə qazanıb. Sözügedən sənədə əsasən, 240 meqavatlıq külək qurğusunun tikintisi Səudiyyə Ərəbistanı şirkətinə həvalə olunub. Ötən müddətdə layihənin reallaşdırılmasına 300 milyon ABŞ dolları ayrılıb. Bu isə Səudiyyə Ərəbistanı şirkətinin öz ölkəsindən kənarda yatırdığı ən böyük investisiyasıdır.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

ŞƏRİF MAHALOV – 85

# Görkəmli nevroloq, şəfqətli həkim

**Azərbaycanın unudulmaz tibb alimləri sırasında həm uğurlu elmi– pedaqoji, həm də şəfaverici bir təbib kimi tanınan, uzun müddət Azərbaycan Tibb Universitetinin Nevrologiya kafedrasına rəhbərlik etmiş, Azərbaycan Nevroloqlar Assosiasiyasının və Epilepsiya ilə Mübarizə beynəlxalq Liqası Azərbaycan bölməsinin prezidenti, Əməkdar elm xadimi, Əməkdar həkim, tibb elmləri doktoru, professor Şərif İslam oğlu Mahalov əgər bu günümüzə qədər yaşasaydı, onu qəlbən sevənlərin, iş yoldaşlarının, sadiq yetirmələrinin, şəfa verdiyi çoxsaylı pasiyentlərinin, istəkli övladları və nəvələrinin, bütün yaxınlarının əhatəsində şərəfli 85 illik yubileyini böyük iftixar hissi ilə qeyd edərdi. Təəssüf ki, 4 il əvvəl - 81 yaşında dünyasını dəyişdi.**

Ş.Mahalov 1939-cu il sentyabrın 15-də Qax rayonunun İlisu kəndində anadan olub, 1947-ci ildə həmin rayondakı 7 illik beynəlmiləl məktəbin I sinfinə gedib, 1951-ci ildə təhsilini Zaqatala şəhərindəki 2 saylı orta məktəbdə davam etdirib. Orta məktəbi əla qiymətlərlə bitirərək, 1958-ci ildə Samara Dövlət Tibb İnstitutunun müalicə fakültəsinə qəbul olunub. O, 1960-cı ildə ali tibb təhsilini N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunda davam etdirib. 1964-cü ildə institutu bitirib və elə həmin il Zaqatala xəstəxanasında işə başlayıb. Bir müddət sonra isə Ş.Mahalov Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda kurs keçərək nevroloq ixtisasına yiyələnib.



Ş.Mahalov dörd il orada praktik həkim vəzifəsində çalışdıqdan sonra ATİ-nin Sinir xəstəlikləri kafedrasında aspiranturaya qəbul olunub. Fitri istedada malik gənc vaxtından əvvəl dissertasiya müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsinə layiq görülüb.

Ötən əsrin 80-ci illərində ümummilli lider Heydər Əliyevin gənclərə göstərdiyi diqqət və qayğı sayəsində N.İ.Piroqov adına II Moskva Dövlət Tibb İnstitutunun doktorantı olub. 1987-ci ildə orada “Sinir və sinir-əzələ sistemlərinin irsi xəstəliklərinin fenotipik polimorfizmi və epidemiologiyası” mövzusunda böyük müvəffəqiyyətlə doktorluq dissertasiyası müdafiə edib, tibb elmləri doktoru elmi dərəcəsinə, az sonra isə professor elmi adına layiq görülüb. Bundan dörd il sonra, yəni 1991-ci ildə o, ATU-nun I Nevrologiya və genetika kafedrasının müdiri vəzifəsinə seçilib.

2011-ci ildə ATU-nun Elmi Şurasının qərarına əsasən, bu vaxta qədər sərbəst kafedralar kimi fəaliyyətdə olan 1-ci və 2-ci Nevrologiya kafedraları birləşdirilib və yeni kafedranın müdiri vəzifəsi professor Şərif Mahalova həvalə edilib.

Professor Ş.Mahalov tərəfindən ölkəmizdə ilk dəfə kliniki, kliniki-genealoji, populyasion, elektrofizioloji və biokimyəvi tədqiqat üsullarından istifadə olunaraq miopatiyalar, amiotrofiyalar, irsi ataksiyalar, Hantinqton xoreyası, Tomsen miotoniyası dərindən tədqiq edilib. O, Hantinqton xoreyası zamanı qeyri-iradi hərəki pozulmaların yüksəkliyi ilə dofaminin ekskresiya səviyyəsi arasında mənfi korrelyasiyanın olmasını aşkar edən və bu sahədə elmə tutarlı yenilik gətirən ilk alim olub.

Bacarıqlı elm fədaisi, professor Ş.Mahalov bütün çətinlikləri özünəməxsus tərzdə dəf edərək məqsədyönlü inadkarlıq və inamlı məsuliyyət hissi ilə axtarışlarını uğurla başa çatdırmaq və istəyinə nail olmaq üçün 10 mindən çox insan haqqında xronoloji məlumatlar toplaya bilib. O, tibbdə ən çətin sahələrdən hesab edilən irsi xəstəliklərə düçar olmuş xəstələr üzərində uzunmüddətli müşahidələr aparıb. Keçmiş Sovet İttifaqı miqyasında bu sahə üzrə çalışan görkəmli alimlərin qeyd etdikləri kimi, tədqiqatın həcminə, problemin dərinliyinə, epidemioloji cəhətdən yayılma sahələrinə görə görkəmli Azərbaycan aliminin təqdim etdiyi elmi-tədqiqat işinin materialları SSRİ miqyasında analoqu olmayan bir tədqiqat işi kimi təsdiqini tapıb. Sözügedən sahənin ən görkəmli mütəxəssisləri etiraf edirlər ki, çox nadir hallarda bir tədqiqatçı bu qədər zəngin materialları hərtərəfli araşdıraraq elmə tutarlı töhfələr verir.

Azərbaycanda angionevrologiyanın inkişafı da Şərif müəllimin adı ilə bağlıdır. O, ATU-nun Nevrologiya kafedrasının çoxillik təcrübəsinə əsaslanaraq, Bakıda 30 çarpayılıq neyro-damar şöbəsinin təşkilinin vacibliyini tövsiyə edib və onun funksional strukturunu müəyyənləşdirib.

Ötən əsrin 90-cı illərində hayların törətdikləri Birinci Qarabağ müharibəsi nəticəsində həmin regionda yaşayan və didərgin düşən əhali arasında uzunmüddətli müalicə tələb edən çoxsaylı yaralılar, kontuziya almış döyüşçülər var idi. Ekstremal şəraitdə professor Ş.Mahalov kafedranın bütün əməkdaşlarını səfərbər edərək, onların diqqətini müharibənin yaratdığı fəsadların müalicəsinə yönəltmişdir. Onun rəhbərliyi altında Qarabağ müharibəsindən keçmiş şəxslər arasında çox sayda “Posttravmatik stress sindromu”nun olması aşkar edilmişdir. Bu sindrom professor Ş.Mahalov tərəfindən “Qarabağ sindromu” kimi səciyyələndirilmişdir. Professor kafedranın əməkdaşları ilə birlikdə Birinci Qarabağ müharibəsi iştirakçılarında, həm də bu müharibədən keçmiş və məcburi köçkünə çevrilmiş əhali arasında “Qarabağ sindromu”nun geniş yayılmasının etiraf edilməsinin vacibliyini əsaslandıraraq, onların “Psixososial reabilitasiyası proqramı kompleksini” işləyib hazırlamışdır. Bu proqramın həyata keçirilməsi sayəsində həmin sindromdan əziyyət çəkənlərə peşəkar reabilitativ – tibbi yardımlar göstərilmişdir.

Görkəmli alimin sonrakı elmi istiqaməti epilepsiya probleminə yönəldilmişdir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada 75 milyona yaxın insan epilepsiya xəstəliyindən əziyyət çəkir. O cümlədən, Azərbaycanda da bu xəstəliyə tutulmuş insanlara heç də az rast gəlinmir. Bununla əlaqədar alimlərin birgə səyi nəticəsində nevrologiyada yeni epileptologiya istiqaməti yaradılmışdır. ATU-nun Nevrologiya kafedrasının əməkdaşları da professor Ş.Mahalovun rəhbərliyi altında son 20 ildə Azərbaycanda ilk dəfə olaraq epilepsiyanın əsaslı epidemiologiyası, onun ayrı-ayrı kliniki formalarının xarakteristikası, qadınlarda epilepsiya, həmçinin epilepsiyalı xəstələrin həyat tərzi və həyat keyfiyyəti ətraflı öyrənilmiş, bu sahə üzrə sanballı elmi məktəb yaradılmışdır.

Respublikada epilepsiyanın hərtərəfli öyrənilməsi üçün həm ixtisaslaşdırılmış tibbi, həm də sosial-psixoloji, hüquqi yardımın təşkil olunmasına dair xüsusi strukturlar yaradılmışdır. Bunun nəticəsində professor Ş.Mahalovun rəhbərliyi altında epilepsiya problemləri mövzusuna həsr olunmuş 1 doktorluq, 8 fəlsəfə doktorluğu dissertasiyası işi yerinə yetirilmişdir. Ümumiyyətlə götürdükdə isə görkəmli alimin elmi rəhbərliyi və məsləhətçiliyi ilə 2 nəfər doktorluq, 16 nəfər tibb üzrə fəlsəfə doktoru dissertasiyası müdafiə etmişdir. Şərif müəllim həm də 250-dən çox çap olunmuş elmi əsərin, o cümlədən 2 monoqrafiyanın, onlarca elmi-publisistik məqalənin müəllifidir.

Professor Ş.Mahalov uzun illər Səhiyyə Nazirliyində Nevrologiya üzrə baş mütəxəssis funksiyasını yerinə yetirib. O, xeyli müddət ATU-nun Dissertasiya Şurasının sədri, Ali Attestasiya Komissiyasının Ekspert Şurasının üzvü olub.

Görkəmli Azərbaycan alimi beynəlxalq aləmdə də tanınan, çap olunmuş elmi işlərinə xarici ölkələrdə də çoxsaylı istinadlar edilən alimlərdəndir. O, dəfələrlə dünyanın bir çox ölkəsində – Türkiyədə, İspaniyada, Fransada, Almaniyada, Belçikada, Finlandiyada, Avstriyada, Rusiyada, Ukraynada, Baltikyanı və Mərkəzi Asiya ölkələrində, eləcə də digər yerlərdə keçirilən elmi konfrans, simpozium və qurultaylarda çıxış edib və beynəlxalq mətbuatda elmi əsərlərini dərc etdirib.

Şərif müəllim Prezident İlham Əliyevin sərəncamı ilə “Əməkdar elm xadimi” və “Əməkdar həkim” fəxri adlarına, eləcə də dəfələrlə Səhiyyə Nazirliyinin və ATU rəhbərliyinin müxtəlif mükafatlarına layiq görülüb.

Professor Ş.Mahalovun ömür-gün yoldaşı Kəmalə xanımla birgə böyütdükləri övladları ata yolunun davamçılarıdır. Onların oğul övladları – tibb elmləri doktoru, professor İslam Mahalov İ.M.Seçenov adına I Moskva Dövlət Tibb Universitetinin Bakı filialının Mamalıq və ginekologiya şöbəsinin müdiri və ATU-nun I Mamalıq və ginekologiya kafedrasının aparıcı mütəxəssislərindəndir. Qızları Vəfa Mahalova ATU-nu bitirib və nevroloq ixtisasına yiyələnib. Hazırda Almaniyanın Bilefeld şəhərindəki Betel Epilepsiya Mərkəzində həkim-psixiatr vəzifəsində çalışır. Onların gəlinləri tibb elmləri doktoru, professor Aytən Məmmədbəyli də həkim-nevroloqdur. Hazırda ATU-nun Nevrologiya kafedrasına rəhbərlik edir.

Şərif müəllim xalqımızın yüksək səviyyəli ziyalılarından, tələbələrinə, yetirmələrinə atalıq qayğısı göstərməyi bacaran unikal pedaqoqlardan, möhkəm iradəli, dönməz əqidəli, Günəş kimi şəfqətli, uşaq kimi məsum təbəssümlü, həm də İlisu dağlarıtək vüqarlı əsl Azərbaycan kişilərindən idi.

Unudulmaz alim ömrünün məhsuldar çağlarında gözlənilmədən COVID-19-a düçar olmuş və 18 dekabr 2020-ci ildə Haqqın dərgahına qovuşmuşdur. Onun əməlləri yaxınlarının, tələbə və yetirmələrinin, dostlarının qəlbində daim yaşayacaqdır.

***Mübariz ALLAHVERDİYEV***
***ATU-nun professoru***



## Azərbaycan səfiri Rusiya mükafatı alıb

**Rusiya Baş nazirinin müavini Tatyana Qolikova Azərbaycanın Moskvadakı səfiri Polad Bülbüloğluya “Ermitaj mükafatı”nı təqdim edib.**

X Sankt-Peterburq Birləşmiş Mədəniyyətlər Forumu çərçivəsində Ermitaj Muzeyinin “Qış sarayı”nda keçirilən mərasimdə Rusiya Prezidentinin beynəlxalq mədəni əlaqələr üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy bildirib ki, Polad Bülbüloğlu mədəniyyətlərarası əlaqələrin möhkəmlənməsinə layiqli xidmət edib. Sankt-Peterburqun qubernatoru Aleksandr Beqlov isə vurğulayıb ki, Polad Bülbüloğlu Azərbaycan mədəniyyətini təkcə Rusiyada deyil, bütün dünyada tanıtmış böyük sənətkardır.

Mükafatı qəbul edən Polad Bülbüloğlu fəaliyyətinə verilən yüksək qiymətə görə təşəkkürünü bildirib, çıxışını “Qorxma, mən səninləyəm” filmindən mahnı səsləndirməklə yekunlaşdırıb.

**XQ**

## Ortaq türk əlifbası hərtərəfli ortaqlaşmanı sürətləndirəcək

**Türk xalqlarının ortaq əlifbasının həyata vəsiqə alması Türk dünyasının hər yerində böyük sevinc və məmnunluqla qarşılanıb. Türkiyənin Uludağ Universitetinin professoru, iqtisadçı və Türk dünyası üzrə mütəxəssis Mehmet Yüce mediaya açıqlamasında bildirib:**

– Hər mədəniyyətin təməli dil, dilin təməli isə hərfdir. Bu baxımdan ortaq əlifba ortaq mədəni irsimizin ən vacib hissələrindən olan ədəbiyyatımızın xalqlarımızın hər bir fərdi tərəfindən rahatlıqla oxunub öyrənməsinin də təməlidir ki, bu da qeyd olunan inteqrasiyanın əsasını təşkil edir. Bu baxımdan Türk dünyasında ortaq əlifbanın qəbulu ilə bağlı fəaliyyət ortaq dil və mədəniyyətlərimizin daha da yaxınlaşması baxımından olduqca mühüm layihədir.

Ortaq əlifbanın mənimsənilməsi türk xalqları arasında əlaqəni gücləndirəcək və ortaq mədəni dəyərlərin qorunmasına xidmət edəcək. Bu, həm də SSRİ dağıldıqdan sonra müstəqilliyini qazanan və daima birliyimiz uğrunda mübarizə aparan türk xalqlarının arzuolunan inteqrasiyasını təmin edəcək.

Ümumiyyətlə, ortaq əlifbanın qəbulu TDT-nin xalqlarımız arasında uzun illər hər sahə üzrə qopmuş əlaqələrin sürətli bərpası istiqamətində atdığı mühüm addımlardan biri oldu. Ortaq türk əlifbası hərtərəfli ortaqlaşmanı sürətləndirəcək.

**XQ**

Yeni dərs ilinə hazırlıq

# Ölkə növbəti dərs ilini yeni arzu və tələblərlə qarşılayır

**(əvvəli 1-ci səhifədə)**

Konfransda bildirilib ki, məktəbəqədər təhsildə əhatəliliyin artırılması, ümumi tədrisin keyfiyyətinin yüksəldilməsi, rəqəmsal səriştələrin inkişaf etdirilməsi və digər istiqamətlər əsas hədəflər sırasındadır. Panel müzakirələr zamanı metodik xidmətin təşkili, dərsliklərin məzmunu, inklüziv təhsil, məktəb-valideyn münasibətləri, tədrisin təşkili, məktəb idarəetməsində səmərəliliyin artırılması, buraxılış və qəbul imtahanlarındakı yanaşmalar və digər mövzuların aktuallığına toxunulub. Konfrans iştirakçılarının fikir və tövsiyələri dinlənilib, onları maraqlandıran suallara cavab verilib.

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən aldığımız məlumata görə, yeni tədris ilində qurumun tabeliyində fəaliyyət göstərən ümumtəhsil müəssisələrində, ümumilikdə, 513 min 698 şagirdin təhsil alacağı gözlənilir. BŞTİ-nin tabeliyindəki məktəblərin I sinfində 46 min 98, IX sinfində 44 min 233, X sinfində 35 min 757, XI sinfində 32 min 260, XII sinfində isə 156 şagird oxuyacaq. Məktəbəqədər təhsil müəssisələrinə isə 45 min 201 uşağın, məktəbəhazırlıq qruplarına 29 min 216 beşyaşlının cəlb olunacağı gözlənilir.

Yeni tədris ilində paytaxt məktəblərində 29 min 400 müəllim, məktəbəqədər təhsil müəssisələrində isə 4 min 830 tərbiyəçi-müəllim çalışacaq. Xatırladaq ki, BŞTİ-nin tabeliyində 698 təhsil müəssisəsi fəaliyyət göstərir. Onlardan 342-si məktəbəqədər təhsil müəssisəsi, 327-si ümumi təhsil, 3-ü xüsusi tipli ümumi orta məktəb, 5-i əyani-qiyabi axşam məktəbi, 12-si internat tipli müəssisə, 9-u isə məktəbdənkənar müəssisədir.

Dərs ilinin başlanması ilə əlaqədar məktəbli forma və ləvazimatlarının satışının həyata keçirildiyi mağazalara da baş çəkdik. Bu məhsullara tələbat xeyli artıb. Qiymətdən və məhsulun keyfiyyətindən razı olanlar da, olmayanlar da var. Paytaxt sakini Xədicə Quliyeva qiymətlərdən razı olduğunu bildirsə də, üç uşaq atası Orxan Abışov qiymətlərin baha olmasından gileyləndi.

Satıcılar da bəzi məhsulların, xüsusilə, kağız ləvazimatlarının qiymətində artımın olduğunu dedilər. Qiymətlərə gəlincə, bu rəqəm çantalarda 20–80 manat arasında dəyişir. Dəftərlər 20 qəpik – 2 manat, sadə karandaşlar 10 qəpik – 2 manat, rəsm albomları 1– 3 manat, sadə qələmlər 10 qəpik –1 manat, rəngli karandaşlar 1– 8 manat, pozanlar 20 – 70 qəpik, qələmyonanlar 15 qəpik – 1 manat 40 qəpik, xətkeşlər 20 qəpik – 3 manat, plastilinlər 1 manat 50 qəpik – 6 manat, fırçalar 30 – 60 qəpik intervalında qiymətlərlə satılır.

Məktəbli formalarının qiymətləri, təxminən, keçənilki ilə eynilik təşkil edir. Yeri gəlmişkən, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Ümumi təhsilin təşkili şöbəsinin müdir müavini Nurlan İsmayılbəyli məktəbli formaları ilə bağlı valideynlərə çağırış edib: “Valideynlər məktəbli formaları ilə bağlı təhsil ocaqları ilə əlaqə saxlasınlar. Xüsusilə, övladı 1-ci sinfə gedən valideynlər həm Dövlət Agentliyi, həm də məktəblərlə əlaqə saxlaya bilərlər”.

Yeni dərs ilinin başlanmasını valideynlər ciddi hazırlıqla qarşılayırlar. Paytaxt sakini Bəsirə Sadıqova dedi ki, məktəblərin açılması onu da sevindirir: “Məktəb üçün lazım olan hər şeyi almışıq. Uşaqların hər gün dərsə gedib-gəlməsi həm də nizam-intizam vərdişlərinə yiyələnmək baxımından önəmlidir”.



Ümumi təhsil müəssisələrində 2024–2025-ci tədris ilinin təşkili barədə elm və təhsil naziri əmr imzalayıb. Əmrə əsasən, ümumi təhsil müəssisələrinin II-XI siniflərində ilk dərs “Yaşıl dünya naminə həmrəylik” mövzusuna həsr olunacaq.

Baş Dövlət Yol Polisi İdarəsindən XQ-yə bildirildi ki, yeni dərs ilinin başlanması təhsilalanların, xüsusilə, uşaq və yeniyetmələrin yol hərəkəti ilə bağlı həyat və sağlamlıqlarının qorunması işində daha kəsərli tədbirlərin görülməsini tələb edir. Daxili İşlər Nazirliyinin göstərişinə əsasən, bu sahədə həyata keçirilən qabaqlayıcı tədbirlərin effektivliyinin artırılması məqsədilə cari ilin sentyabr ayının 10-dan oktyabr ayının 10-dək respublika ərazisində təhlükəsizlik aylığının keçirilməsinə başlanılıb. “Diqqət, uşaqlar!” devizi altında keçiriləcək tədbirlər çərçivəsində təhsilalanların iştirakı ilə baş verə biləcək yol qəzalarının qarşısının alınması istiqamətində nəzarət-profilaktik tədbirlərin gücləndirilməsi, təhsil müəssisələrinin yerləşdiyi ərazilərdə yol şəraitinin müəyyən edilməsi, çatışmazlıqların aradan qaldırılması, xüsusilə, maarifləndirmə və tərbiyəvi-təbliğat xarakterli işlərin görülməsi nəzərdə tutulur.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

Xatirələrə köçənlər

# “Bu dünyada yuxudayıq, öləndən sonra ayılacağıq”

... Bunu deyib baxışlarını mənə zillədi:
– İnanırsan?
– İnanıram.
– Kimin kəlamıdır?
– Həzrəti Əli əleyhəssalamın...
– Bəli, bu həqiqəti son zamanlar mən də daha aydın dərk edirəm. Lakonik şəkildə, necə də doğru-dürüst ifadə edib...

Qırx gün bundan əvvəl Haqq dünyasına qovuşmuş İlham Abbasov barədə düşünərkən nədənsə, onunla bağlı, ilk növbədə, yadıma düşən bu söhbət oldu. Niyə məhz bu söhbət? Çünki hiss eləmişdim ki, son vaxtlar dini mövzulara, xüsusən, səmavi dinlərin göndərişinə, yaşadığımız həyatda həqiqi bərabərliyin, halalı-haramdan, haqqı-batildən, Xeyiri-Şərdən ayıran nizamın yaranmasının zəruriliyinə onda böyük maraq yaranmışdı. Səmavi dinlər haqqında məlumatlı idi. “Tövrat”ı, “İncil”i, “Quran”ı mütaliə etmişdi, bəzən eyni məsələyə münasibətdə səmavi dinlərin yanaşması barədə paralellər aparırdı...

Az qala, 30 ilə yaxın eyni kollektivdə birgə çalışdığım İlham müəllimi əvvəllər isə peşəkar bir jurnalist, mədəniyyətimizin, konkret olaraq, ədəbiyyatımızın dərin araşdırıcısı kimi tanıyırdım. Bilirdim ki, o da mənim kimi, ali məktəbə o dövrün müəyyən “baryer”lərini aşa bilmədiyinə görə, “birnəfəsə” daxil ola bilməmişdi, əsgəri xidmətini çəkəndən sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində ali təhsil almışdı. Universiteti bitirdikdən sonra – 1985-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda baş laborant, laboratoriya müdiri, Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasında müəllim və baş müəllim vəzifələrində işləmişdi.

İlham müəllimin “Xalq qəzeti”ndə işləməsi ilə redaksiya say-seçmə qələm sahiblərinin, ədəbiyyat və incəsənət xadimlərinin, yazıçı, şair, rəssam və bəstəkarların görüş yerinə çevrildi. Nə vaxt onun kabinetinə girsəydin, bu qəbildən olan ziyalıları orada görərdin. Çox maraqlı və aktual mövzularda müzakirələrin, bəzən də sağlam mübahisələrin şahidi olardın.

Kənardan müşahidə etsəm də mənə bir şey aydın olurdu ki, belə müzakirə və mübahisələrdə həlledici sözü İlham müəllim deyərdi. Professorlar, ünlü ziyalılar, əsasən, onun fikirləri ilə razılaşardılar.

İlham müəllim dissertasiya müdafiə eləməmişdi, adi müəllim idi. Amma bir filoloq–tənqidçi kimi səviyyəsi nəinki dosentdən, hətta professordan da üstün idi. Professorların, akademiklərin yazılarını uğurla redaktə edirdi.



Dostluq münasibətimizin olmasına baxmayaraq, nə üçün dissertasiya müdafiə etmədiyini ondan soruşmamışdım. Çünki mənim nəzərimdə məşhur Əli Fəhmi nümunəsi var idi. Amma çay süfrəsi ətrafında bir dəfə ona bu sualı verdilər. Bir az duruxdu və gülümsədi. Həqiqətimi desin? Yanında müdafiə edib yenicə elmlər doktoru olmuş yaxın dostu oturmuşdu. Bu vaxt digər bir professor onu qabaqladı: – Nəyinə lazımdır müdafiə? Biz müdafiə eləmişik, əlimiz bala batıb? Sən ondan soruş ki, indiyədək neçə alimə dissertasiya mövzusu işləmisən...

Bir qələm sahibi, publisist kimi də peşəkar idi. Redaksiyada yeganə adam idi ki, çətinliyə düşəndə, tərəddüd etdiyim, şübhələndiyim bir sözün yazılışı ilə bağlı onunla məsləhətləşirdim. Yazılarının redaktəsini heç kəsə etibar etməzdi, yalnız mənə oxudardı. Çox az sayda, yüngül düzəlişlərim olardı, amma onları da asan qəbul eləmirdi. Redaktədə praktikaya yox, əsasən, nəzəriyyələrə əsaslanırdı. Bir dəfə məqaləsini redaktədən imtina etdim. İnad etdi: “Yox, mütləq oxumalısan, elə düzəlişlərin olur ki, ürəyimə yağ kimi yayılır...”

Obyektiv insan idi İlham müəllim. Çox hörmətli bir akademikin məqaləsini oxuyub redaktə etməyi mənə tapşırmışdılar. Xeyli düzəliş elədim. Müəllif bundan inciyib bir ilə yaxın redaksiyamıza yazı göndərmədi. Mənim iştirak eləmədiyim məclisdə bu barədə söhbət düşüb və “dost”larımdan biri bunu mənim ünvanıma irad tutub: “Lap ağ eləyib, akademikin də yazısında düzəliş eləmək olar?

Bu yerdə İlham müəllim dözməyib:

– Niyə olmur, dilimizin orfoqrafiya qaydalarını pozmaq olar? Mən şahidiyəm ki, nə eləmişdisə düz eləmişdi...

Bunu mənə İlham müəllim deməmişdi, başqasından eşitmişdim. İlham Abbasovun vəfatından təsirlənən iş yoldaşlarının, dostlarının ürək sözləri qəzetlərdə, sosial şəbəkələrdə yer almışdı. Onlardan bəzilərini burada təqdim etməyi məsləhət bildim:

**Əflatun Amaşov, tələbəlik yoldaşı:**

– İlham Abbasov mənim üçün, ilk növbədə, əsl dost idi. Tələbəliyimin qazandırdığı dost. İnsanı sözdən deyil, baxışdan, duruşdan, adi bir mimikadan anlayan dost. O dostluğa dəyər vermənin nümunəsi idi. Fikrimcə, bir insanın malik ola biləcəyi ən böyük status elə budur.

Digər tərəfdən, İlham mərdlik və cəsarət nümunəsi idi. Bir dəfə də görmədim ki, o, boğazdanyuxarı söz danışsın, nəyə görəsə kimisə tərifləsin, yaxud pisləsin. Onun tərifində də, tənqidində də məna yükü var idi. Sözü heç zaman boş yerə deməzdi. Heç nəyi şəxsiləşdirməzdi. Bu cəhətləri İlhamı prinsipial insan kimi xarakterizə etməyə imkan verir.

İlham Abbasov yüksək istedad və savad sahibi idi. Hesab edirəm ki, onun istedadının və savadının qayəsində söz dayanırdı. O, özündə sözə dəyər vermənin, ana dilimizə sevginin xarizmatik obrazını canlandırırdı. Hər fikrində, hər sözündə dilimizin böyüklüyünü yaşadırdı. Ona qulaq asanda dilimizin zənginliyi özünü o qədər fərqli və ifadəli çalarlarla göstərirdi ki, hərdən heyrətlənirdim də.

İlham Abbasovun yoxluğu mənim kimi dostları, həmkarları, onu tanıyan hər kəs üçün son dərəcə böyük itkidir. Nur içində yatsın!

**Rəşad Məcid, Mətbuat Şurasının sədri:**

– Azərbaycan Mətbuat Şurasının dil üzrə eksperti olan İlham Abbasov ölkə mediasında ana dili normalarına əməl olunması ilə bağlı davamlı monitorinqlər aparılmasına rəhbərlik edən, dil qanunvericiliyi və ədəbi redaktə sahəsində metodik-tövsiyə vasitələri hazırlayıb nəşr etdirmişdi. Tələbəlik illərindən ölkənin ədəbi mühiti ilə sıx əlaqədə olan İlham Abbasov Azərbaycan Yazıçılar Birliyinin ədəbi tənqid bölməsinin fəaliyyətində də yaxından iştirak etmiş, yetkin ədəbiyyatşünas, nadir söz xiridarı kimi tanınmışdı. Onun ədəbi-bədii nəşrlərdəki çıxışları daim böyük maraqla qarşılanırdı. İlhamın qəfil ölümü elm, təhsil və jurnalistikamız üçün ağır itki oldu.

**Oktay Bayramov, iş yoldaşı:**

– İlham Abbasov bir müəllim kimi, Azərbaycan Dövlət Pedaqoji Universitetində həmkarı və yaxın dostu Mətləb Nağının “Yaşamaq istəyirdim…” kitabının da tərtibçisi və redaktoru olub. Bu iki istedad sahibinin tez-tez redaksiyada birgə fəaliyyətinin, maraqlı müzakirələrinin, çılğın mübahisələrinin dəfələrlə şahidi olmuşam.

Dünyadan vaxtsız köçmüş görkəmli şair və ədəbiyyatşünas alim M.Nağının unudulmaz xatirəsinə həsr edilən kitabda toplanmış lirik və satirik şeirlər, tərcümələr, elmi məqalə və müsahibələr, onun poeziyasının müxtəlif cəhətlərini əks etdirən araşdırmalar, haqqında yazılmış xatirələr, həyatının müxtəlif anlarını əbədiləşdirən fotoşəkillər müəllifin zəngin və çoxcəhətli yaradıcılığı, qısa, amma mənalı ömür yolu haqqında dolğun təsəvvür yaradır.

**İttifaq Mirzəbəyli, iş yoldaşı:**

– O yerə İlham Abbasovla ikimiz gəlmiş və “Salam, “Sarı qaya”, Məmmədsiz məkan, sözünün, sovunun Mətləbi hanı?” – deyə soruşmuşduq. İlham Adil Qaçayoğlunu, mən Akif Səmədi yada salmışdım. İlham Ağamalı Sadiqi, mən Hüseyn Əfəndini xatırlamışdım. Həmin gün orada İlhamdan çox bədbin bir ifadə eşitmişdim: Qorx ki, Məmmədin 65 yaşında bura tək gələsən... Gələn ayın sonunda Məmməd Nazimoğlunun 65 yaşı tamam olacaq.

**Zərifə Başirqızı, iş yoldaşı:**

– Yaxşı yadımdadır, dostu Mətləb Nağı rəhmətə gedəndə gəldi, xeyli dərdləşdik.. "Bir-bir dostlarım gedir– Mahal getdi, Məmməd getdi, Hüseyn getdi, indi də Mətləb..." Zarafatla dedim ki, "adam öləndə də, sənin kimi dostu qala, vay o günə ki, hamı gedə, sən qalasan".

İlham müəllimdə bir xarakter vardı. Həyatdan köçən dostlarının ad günündə də, anım günlərində də mütləq onların məzarını ziyarətə gedir, ya da əli çatmayanda, digər yoldaşları ilə yığışıb xatirəsini anırdılar.

**Hamlet Qasımov, iş yoldaşı:**

– Ona mən həmişə bir şəxsiyyət kimi baxmışam: oturuşunu-duruşunu bilən, qeybətdən, dedi-qodudan uzaq, ciddi, istənilən mövzuda söhbət aparmağı bacaran ziyalı, gözü-könlü tox jurnalist, necə deyərlər, bəziləri kimi hələm-qələm işlərlə arası yox, dərvişlikdən tamamilə uzaq, yaradıcı bir insan olduğu üçün.

***

Çox olmaz, haradasa, iki ayın söhbətidir. Günorta vaxtı Sahil bağında onunla rastlaşdım. Ağır-ağır yeriyirdi. Halı heç xoşuma gəlmədi. Bununla belə şikayətlənmədi.

Bəs, köhnə məkana (redaksiyanı nəzərdə tutdum) niyə gəlmirsən? – soruşdum.

– Əvvəlki heyim qalmayıb, – deyərək xəfifcə gülümsündü.

Soruşdum:
– İndi hara gedirsən?
– Metroya, “Həzi Aslanov”dan da evə…
– Bəlkə bir taksi saxlayım?
– Ehtiyac yoxdur– dedi və mənim narahatlığımı sezərək bir qədər də ayaq saxladı.

Dədəmiz Qorqud necə deyib:
Hanı dediyim bəy ərənlər?
“Dünya mənimdir” deyənlər?!
Əcəl aldı, yer gizlədi.
Fani dünya kimə qaldı?

Sonra əlavə etdi ki, rəhmətlik Əzizxan Tanrıverdiyev “Kitabi-Dədə Qorqud”u çox yaxşı tədqiq eləmişdi. İnanmıram, hətta, indən belə də kimsə o eposu o səviyyədə araşdırsın. Allah Əzizxana rəhmət eləsin!– dedi və yavaş-yavaş metronun “Sahil” stansiyasına tərəf yönəldi. Mən də İlham müəllimin yerişinə uyğun yavaş-yavaş gedərək stansiyanın eskalatoru ilə yerin altına düşənə qədər onu müşayiət elədim…

…Acı xəbəri eşidəndən sonra istər-istəməz İlham müəllimin son dəfə Dədə Qorquddan söylədiyi şeirin son misralarını pıçıldadım:

*Gəlimli-gedimli dünya,*
*Bir ucu ölümlü dünya!*

**Allah rəhmət eləsin!**

*Qüdrət PİRİYEV*
*XQ*

Bölgələrdə ədəbi mühit

# Yeni bədii söz ocağı

**Bəlkə də yurdumuzun ecazkar guşələridir bizi “şair xalq” kimi tanıdan. Təbiət gözəllikləri insanların duyğu və düşüncələrinə də nüfuz edir, qələmə sarılan hər kəs Vətəni bədii təsvir vasitələri ilə tərənnüm edir.**



Qax, Zaqatala və Balakən rayonları da misilsiz gözəllikləri ilə seçilir və bu bölgədə də xeyli istedadlı qələm sahibi yaşayıb-yaradır. Təsadüfi deyil ki, Azərbaycan Yazıçılar Birliyinin bu 3 rayonu əhatə edən Şimal–Qərb Regional Bölməsi də məhsuldar fəaliyyət göstərir. Yazıçı-jurnalist “Fidanlarla keçən ömür”, “Köksümə sığmayan ömür”, “Sevənlər unudulmur”, “Həyat davam edir” kitablarının müəllifi Əlmaniz Ələkbərli bölmənin sədridir. Yarandığı qısa vaxt ərzində bölmədə görülən işlərlə bağlı məlumat almaq üçün bölmə rəhbəri ilə həmsöhbət olduq.

**– AYB Şimal–Qərb Regional bölməsinin yaradılması hansı zərurətdən irəli gəldi?**

– Əvvəllər biz də AYB-nin Şəki bölməsində fəaliyyət göstərirdik, amma məsafə uzaq olduğuna görə ədəbi mühitin inkişafında müəyyən problemlər yaranırdı. Odur ki, AYB Zaqatala Bölməsi yaradıldı. Bildiyiniz kimi, bölmənin yaranması və sədrin rayon ictimaiyyətinə təqdim olunması ilə bağlı 30 avqust 2023-cü ildə Zaqatala rayon Heydər Əliyev mərkəzində toplantı keçirilib. Oradakı çıxışımda söz vermişdim ki, bölgədə ədəbi mühitin daha da canlanmasına çalışacağıq. İlk olaraq bölgədəki şair və yazıçıları bir araya topladıq. Daha sonra, ən azı, ayda bir dəfə hər üç rayonda yazarlarla görüş keçirildi. Bundan sonra şair və yazıçıların doğum günlərinin, yaradıcılıq gecələrinin keçirilməsi ənənə halı aldı. Bütün bunlar həm də əhalinin mənəvi zövqünün inkişafına xidmət edir.

Son 1 il ərzində Şəki–Zaqatala regional təhsil idarəsi və təhsil işçilərinin Həmkarlar İttifaqı Komitələri ilə birgə 3 inşa-esse müsabiqəsi keçirmişik. Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş müsabiqələrə Şəki, Oğuz, Qəbələ rayonlarının məktəblilərini də cəlb etmişdik.

**– Fəaliyyətinizin genişlənməsi üçün daha hansı addımlar atılıb?**

– AYB bölməsi olaraq məktəblilər arasında istedadların tapılıb önə çəkilməsini daim diqqət mərkəzində saxlayırıq. Bu baxımdan Zaqatala rayon Faldarlı kənd tam orta məktəbinin 9-cu sinif şargirdi Elton Osmanovun “Mən kiməm” romanının təqdimat tədbiri yaddaqalan olub. Faldarlı məktəbinin akt zalında keçirdiyimiz təqdimat mərasimində rayonun bir çox idarə-müəssisə rəhbərləri, şəhid ailələri, qazilər və yerli yazarlar iştirak edirdi. Biz orada, həmçinin məktəblilər arasında sözə, şeirə necə dəyər verildiyinin şahidi olduq.

**– Bölmənizdə AYB üzvləri kimlərdir?**

– Demək olar ki, hər bir rayonda AYB-nin qocaman və orta yaşlı üzvləri var. Bununla yanaşı, təkcə bu il Zaqataladan 3 nəfər – Həvva Adəmsoy, Güldanə Ramazanova və Adilə Aslanova AYB üzvlüyünə qəbul olunublar. Maraqlı bir fakt: bölməmizin üzvlərindən biri, Qax rayonundan olan Giya Paçxataşvili 3 dövlətin – Azərbaycan, Rusiya və Gürcüstan Yazıçılar birliklərinin üzvüdür.

Azsaylı xalqların kompakt yaşadığı Qax, Zaqatala və Balakən rayonlarında Azərbaycan, zaxur, avar, gürcü və rus dillərində şeir və hekayə yazanlar yetərincədir. AYB üzvü olan yaşlı nəsil nümayəndələrinin gənclər üçün nümunə olduğunu nəzərə alaraq, onlarla tez-tez görüşlər keçiririk. Zaqatala rayonunun ədəbi mühitində böyük xidmətləri olmuş ağsaqqal yazar Sabir Qurbanovu, 76 yaşlı Zümrüd Rəsulovanı evində ziyarət edərək onlara mənəvi ruh vermişik. Bundan əlavə, Azərbaycan və avar dillərində şeirlər, poemalar müəllifi Xutra Ramazanla da gənc yazarların görüşlərini təşkil etmişik.

Ötən dövr ərzində çalışdıq ki, el arasında bir növ “sandıq ədəbiyyatı” yaradan yazarları da tapıb ortaya çıxaraq. Demək olar ki, hər rayonda yaşından asılı olmayaraq bir neçə nəfər bu tip yaradıcılıqla məşğul olur ki, onları ictimaiyyətə təqdim edə bilmişik. Bunlardan ən yaşlısı Qax rayonundan olan 1951-ci il təvəllüdlü Nəcabət Dərvişovanı və ən cavanı Zaqatala rayonundan olan 2005-ci il təvəllüdlü Dərya Aslanovanı göstərə bilərik. Şəhid Azad Davudovun anası Hacı Züleyxa xanım da sıralarımıza qoşularaq, yenidən yazıb-yaratmağa başlayıb.

**– Yaradıcılıq nümunələrinin çapı nə yerdədir?**

– AYB Şimal–Qərb bölməsinin fəaliyyətə başlamasından cəmi 1 il ötsə də, yerli yazarların şeir və hekayələrindən (dünyasını dəyişən şair və yazıçıların bədii nümunələri də daxil edilməklə) ibarət “Zaqatala almanaxı”, “Qax–Balakən almanaxı” və uzun illər yazdıqlarını sandıqda gizlədən Əmrah Yusifov (Əmrah Almalı), Həvva Adəmsoy, Şükufə Göyçəli, Kifayət Mütəllibqızı, Aytac İbrahimin kitabları işıq üzü görüb. Elə şairlərimiz var ki, iki dildə yazdığı şeirlərə mahnılar bəstələnib. Məsələn, Nəbi Mülkümovun şeirlərinə bəstələnmiş neçə-neçə mahnı el şənliklərində oxunur.

**– Maraqlı söhbətə görə sağ olun. Bölgənizin yazarlarına yeni yaradıcılıq uğurları diləyirik!**

*Söhbəti yazdı:*
*İlqar HƏSƏNOV*
*XQ-nin bölgə müxbiri*

Hər kitab bir dünyadır

## “XVII əsr Azərbaycan əlyazma kitabı”

**AMEA Əlyazmalar İnstitutunun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Əli Məmmədbağıroğlunun bu adda kitabı institutun Elmi Şurasının qərarı ilə “Elm və təhsil” nəşriyyatında çap olunub.**




Əsərdə əlyazma kitablarının paleoqrafik və mətnşünaslıq məsələləri işıqlandırılıb. Kitabın elmi redaktoru filologiya elmləri doktoru Paşa Kərimov, rəyçiləri professorlar Azadə Musayeva və Kamil Allahyarovdur.

Əsərdə 32 əlyazmanın ayrı-ayrılıqda təsviri verilib, bu mənbələrin onların paleoqrafik xüsusiyyətləri, kağızı və filiqranı, köçürülmə tarixi və yeri, bədii tərtibatı, kataloqlaşdırılması, Füzuli əlyazmalarında mətnşünaslıq məsələləri araşdırılıb. Kitab mətnşünaslıqla məşğul olmaq istəyən tədqiqatçılar, doktorantlar, tələbələr üçün dəyərli və maraqlı vəsaitdir.

## “Qələbə nidası”

**Vətən müharibəsinin böyük tarixini, misilsiz əzəmətini, saysız qəhrəmanlıqlarını və bunların fonunda Vətənin müqəddəsliyini tərənnüm edən maraqlı əsərlərdən biri də yazar Mikayıl Bədəlovun “Qələbə nidası” poemasıdır.**




Bu, müəllifin oxuculara ərməğan etdiyi 3-cü kitabıdır. Poema məzmun yükünə görə həm də salnamə statusu daşıyır. Poemada müharibənin ilk günündən sonunadək ardıcıllığı, bədii epitetlərlə təsviri, əsgər qəhrəmanlıqlarının şücaəti mübaliğəsiz, lakin poetik çalarlarla işıqlandırılması şübhəsiz ki, müəllifin geniş erudisiyaya sahib, istedadlı qələm əhli olmasından irəli gəlir:

*Haqq tutur öz yerini,*
*Ədalət zəfər çalır.*
*İgid, ərən, əsgərim*
*Düşməndən qisas alır.*

Kitabın redaktoru Elmira Cəzair qızı, ön sözün müəllifi Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Abbas Abbasovdur.

*Ə.DOSTƏLİ*
*XQ*

Təqvim yada salır

# Milli futbolumuzun baş meydançası

## *Tofiq Bəhramov adına stadion 73 illik idman tariximizin şahididir*

**Köhnə dostumuz, hələ uşaqlıq illərindən çoxlarımızın həyatının bir parçasına çevrilən və getdikcə hər qarışına dərindən bələd olduğumuz Respublika stadionunun rəsmi açılış mərasimindən artıq 73 il ötür. Amma illər bir-birini əvəz etsə də, öz unudulmaz tarixi ilə haqlı olaraq daim fəxr edə biləcək bu nəhəng idman qurğusu qocalmır, əksinə, ildən-ilə qamətini daha da düzəldib gözəlləşir, qonaqları ilə hər görüşə daha çox şad olur.**



Həyata vəsiqə aldığı ilk illərdə o dövrün tələblərinə uyğun olaraq “xalqlar atası” İ.V.Stalinin, sonralar “proletariatın dahi rəhbəri” V. İ. Leninin adını daşıyan, 1993-cü ildən isə əsl futbol adamı, Beynəlxalq Futbol Federasiyası (FİFA) hakimlər korpusunun respublikamızda ilk səlahiyyətli nümayəndəsi Tofiq Bəhramova dərin ehtiram əlaməti olaraq onun adı verilən əzəmətli stadion 73 illik tarixində bir-birindən mötəbər yarışların, tədbirlərin, hadisələrin şahidi olmuşdur.

Həmin gün, 1951-ci il sentyabrın 16-da burada böyük bir bayram yaşanmış, respublika rəhbərliyinin, idman ictimaiyyətinin, on minlərlə azarkeşin iştirakı ilə stadionun açılış mərasimi keçirilmişdir.

Azərbaycanın çoxminli bədən tərbiyəçisi ordusunun, ən yaxşı idmançılarının, görkəmli yetirmələrinin, Sovet İttifaqı çempionları və rekordçularının məmnuniyyətlə, xoş bir həyəcanla iştirak etdikləri tədbirin sonunda isə tribunalara toplaşan 40 mindən çox tamaşaçı (hətta statistika 45 min də deyir) o illərdə hələ “Neftyanik” adlanan komandamızın SSRİ çempionatının “B” qrupunda Vilnüsün “Spartak” kollektivi ilə görüşünü tbilisili hakim N. Ramişvilinin start işarəsindən final fitinədək böyük maraqla izləmiş və 4:0 hesablı qələbəmizə ürəkdən sevinmişdir. Oyunun qəhrəmanı isə iki qolun müəllifi, sonralar Moskvanın məşhur “Dinamo” komandası heyətində dörd dəfə SSRİ çempionatlarının qızıl medalını qazanmış, unudulmaz mərkəz hücumçusu Ələkbər Məmmədov olmuşdur.

Bu gün metronun “Gənclik”stansiyası yaxınlığında gurultulu həyatının 74-cü ilinə qədəm qoyan, yaşından, peşəsindən, vəzifəsindən asılı olmayaraq, yüz minlərlə insanımızın sevimli istirahət yeri kimi oyun günləri qapılarını böyük qonaqpərvərliklə onların üzünə taybatay açan Tofiq Bəhramov adına Respublika stadionu müxtəlif illərdə güləş, boks,voleybol, yüngül atletika və digər növlər üzrə mötəbər yarışlara şahidlik etsə də, ilk növbədə, futbolla nəfəs alır və milyonların ən sevimli oyununa xidmət edir.



“Neftçi”nin, Azərbaycan futbolunun əksər pərəstişkarları kimi, mənim də bu stadionda izlədiyim ilk oyundan az-çox nəsə yadımda qalıb. Rayonda orta məktəbi bitirib, yenicə Bakıya gəlmişdim. 1961-ci il iyulun 2-si idi. “Neftçi” növbəti ölkə çempionatının ikinci dövrəsi çərçivəsində Xarkovun “Avanqard” kollektivini qəbul edirdi. Heç-heçə (1:1) başa çatan oyunda bizdən topu Adamas Qolodets vurdu. Həmin gün futbolumuzun flaqmanının heyətində Ələkbər Məmmədov, Əhməd Ələsgərov, Adil Babayev, Vyaçeslav Semiqlazov, Robert Çançaleyşvili və başqalarını da yaxından gördüm.

İndi statistikanın köməyi ilə Bakı və Xarkov komandaları arasında həmin çempionatda oynanılmış birinci dövrə matçı haqqında da kifayət qədər məlumat əldə etmək olar. Mayın 13-də Xarkovun “Avanqard” stadionunda keçirilmiş görüşdə moskvalı hakim P. Apuxtin Azərbaycan paytaxtı futbolçularının xeyrinə 1:0 hesabı qeydə almışdır. Qələbə topunu 58-ci dəqiqədə sağ kənar hücumçusu Kamil Eynullayev vurmuşdur.

Azərbaycan futboluna sadiq pərəstişkarlardan hər biri qəlbində gözəl stadionumuzla bağlı xoş xatirələr gəzdirir. Onlar “Neftçi”nin SSRİ çempionatlarında ən böyük uğurunun sevincini 1966-cı il noyabrın 30-da yaşamışlar. Həmin gün 28-ci ölkə birinciliyinin vida görüşündə bakılıların 45 min tamaşaçının gözü qarşısında Moskvanın “Spartak” komandasının qapısına vurduqları üç cavabsız top (3:0) bizə bürünc mükafat qazandırmışdır. Bu, SSRİ çempionatlarında Azərbaycan paytaxtına gətirilən ilk medal dəsti idi. İdman ictimaiyyətimiz, bütün xalqımız özünü çox xoşbəxt hesab edirdi.

Həyat, onunla da birlikdə futbol hadisələri davam edir. Tezliklə yenə hamı “Tofiq Bəhramov”a tələsəcək. UEFA Avropa Liqası turnirinin əsas mərhələsində “Qarabağ”ın oktyabrın 3-də İsveçin “Malmö” klubu ilə görüşünə çox qalmır. Azərbaycan futbolunun şərəfini ləyaqətlə qoruyan Ağdam komandasının bu stadionda beynəlxalq görüşlərdə özünü daha inamlı hiss etməsi də təsadüfi deyil…

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

Sənətinin ustadları

# Eldostu “el dostu”na çevirən şirin, qəlboxşayan səs

**Bu həzin, yapışıqlı səs sahibini radioda dinləyən hər kəs dərhal tanıyır və “Eldost Bayramdır” – deyir. Biz də səsinin sehri ilə məşhurlaşmış bədii qiraət ustası, diktor, Xalq artisti Eldost Bayramla söhbətimizdən yetərincə zövq aldıq.**



**– Eldost müəllim, səsinizlə insan qəlbinin sarı siminə toxunmağı bacarırsınız. Yəqin ki, uğurunuzu təmin edən təkcə bu deyil...**

– Səs Allahın lütfüdür. Amma seçilmək, tanınmaq üçün sənəti sevmək, illərlə çalışmaq, əziyyət çəkmək tələb olunur. Mənim 5–6 yaşım olanda kəndimizə radio qovşağı çəkilmişdi. Reproduktordan diktorların səsini heyrətlə dinləyirdim. O vaxt sehrli sayılan həmin qutuya marağım da elə taleyimi həll elədi. Belə də deyə bilərəm: həyat yolumu Aydın Qaradağlı və Ramiz Mustafayevin səsi müəyyənləşdirdi. Bu xüsusda Fatma Cabbarovanın, Züleyxa Hacıyevanın da adını qeyd edə bilərəm. Məqsədimə çatanda – radionun diktoru olanda sevincim yerə-göyə sığmadı. İllərlə çalışdım, səsimi cilaladım, şeirə yatımlı olduğuna görə bədii qiraətlə də məşğul oldum. Yəni zəhmət çəkə-çəkə irəlilədim. Bu gün də “Oxuduğunuz şeir qəlbimizə yatdı” kimi rəylər eşidirəm. Bu da məni mənəvi cəhətdən yaşadır.

**– Böyük rejissor Adil İsgəndərovun kursunda təhsil almısınız...**

– 1969-cu ildə Pedoqoji Universitetin tarix fakültəsində təhsil alırdım. Həmin vaxt mənim üçün çox vacib olan 2 imkan yarandı: dil kursu və Adil İsgəndərovun kinostudiyada açdığı kinoaktyorluq kursu. Kinoaktyorluğu seçdim və 1 il bu kursda Telman Adıgözəlov, Sevil Xəlilova ilə birlikdə təhsil aldım. Sonra Ədil İsgəndərovun radionun baş direktoru Ramiz müəllimə təklifi ilə orada diktorluğa başladım.

**– Diktorluq sənətinin əsas məziyyətləri hansılardır?**

– Diktorlar Azərbaycan dilini təbliğ edirdi, biz etalon sayılırdıq. İnsanlar sözlərin düzgün tələffüzünü, düzgün diksiyanı öyrənmək üçün radio dinləyirdilər. Diktorun dilində ləhcə, deffekt olmamalıdır. Baxın, kimsə mənim danışığımdan bilməz ki, hansı bölgədənəm. Dilimi aksentdən təmizləmişəm. Qulağım hər zaman tanınmış diktorlarda idi, tamaşaları izləyirdim, aktyorların tələffüzünə diqqət yetirirdim. Yadımdadır, bir dəfə Şəkidə tədbirdə aparıcı idim, bir xanım mənə yaxınlaşıb dedi ki, nitq qabiliyyəti üzrə nəyə nail olmuşamsa – Azərbaycan Radiosuna minnətdaram. Siz əsl məktəbsiniz. Təəssüf ki, indi diktorluq sanki sıxışdırılıb aradan çıxarılır. Aparıcılar isə monoloq söyləyir, müsahiblərinə danışmağa imkan vermirlər. Bu, yaxşı tendensiya deyil...

**– Müsahibələrinizin birində demisiniz ki, şeirləri səsləndirən zaman özüm də həmmüəllifə, obraza çevrilirəm. Ruhən təzələnir, gəncliyimə qayıdır, sirli anlar yaşayıram. Maraqlıdır, şeirləri necə seçirsiniz?**

– Mən şeiri daxilindəki mənaya görə sevirəm, həssas şeirləri ruhuma daha yaxın hesab edirəm. Radioda işləməklə yanaşı, 2 il filarmoniyada mötəbər tədbirlərdə konsert proqramlarının aparıcısı olmuşam. Tədbirlərə daha çox gənclərin gəldiyini nəzərə alaraq, lirik, bədii şeirləri səsləndirməyə daha çox üstünlük verirdim. Bir dəfə Famil Mehdinin “Gözəl olmayan qız” şeirini oxuyacaqdım. Səhnəyə çıxıb dedim: “Gözəl olmayan qız varmı görəsən?”. Dinləyicilər maraqlandılar, nə demək istəyir? Davam elədim:

**Bəlkə, gözəlliyi görməyən gözlər,**
**Duymayan ürəklər var bu dünyada...**

Gənc yaşlarımda mən də yazmışam, ancaq axı onlar şeir deyil. Allah mənə yazmaq qabiliyyəti yox, ifa etmək qabiliyyətini verib və mən də şairlərin şeirlərini oxuyub bir növ onlarla həmmüəllif olmaqla kifayətlənirəm. Hərdən şairlər mənə deyirlər: “Eldost müəllim, yəni bu şeiri mən yazmışam? Siz yeni bir rəng, yeni bir yön vermisiniz şeirə”.

**– Musiqi alətlərini kökləmək, yeni ifaya hazırlamaq zərurəti olur həmişə. Siz şeir və ya xəbər oxuyarkən səsinizi nizamlamağa ehtiyac duyursunuzmu?**

– Tədbirlərin birində musiqi tərtibatçıları səsgücləndirici aparatı nizama salırdılar. Mən də mikrafonu yoxlamaq istədim, musiqiçilərdən biri sual verdi ki, Eldost müəllimə exo, yəni əks-səda effekti də verimmi? Dedilər ki, Eldost müəllimə exo lazım deyil, exo onun öz səsində, boğazındadır. Təvazökarlıqdan uzaq olsa da, bu münasibətdən çox məmnun qaldım. Mütəxəssislər var ki, qiraətçi bədii mətni ifa etdikdən sonra ona uyğun musiqi əlavə edir, müəyyən təmizləmə işi aparırlar. Amma, məncə, orijinal ifa daha gözəldir. Bəzən musiqi dinləyiciyə mane olur.

**– Pedaqoq kimi də fəaliyyət göstərmisiniz...**

– COVID xəstəliyindən öncə 3 il akademiyada dərs demişəm. Tələbələrə ilk sözüm bu olurdu ki, peşənizi və ailənizi düzgün seçin. Çünki hər ikisi ömrünüzün sonuna kimi sizinlə olacaq. Pedaqoqam, ancaq, nədənsə, müntəzəm dərs deməkdən həmişə yayınmışam.

**– Bu gün bir çox televiziya verilişləri mövcuddur, gənc aparıcılar yetişir, onlara tövsiyəniz nə olardı?**

– Gənclərə demək istəyirəm ki, bir azərbaycanlı kimi dilimizi təbliğ etsinlər. Torpaqlarımız azad edildiyi kimi, dilimiz də yad ünsürlərdən təmizlənsin. Bu yolda gənclərə uğur arzu edirəm!

**– Təşəkkürlər və uğurlar, Eldost müəllim!**

***Aynur HİLALİ***

Həyatın içindən

# Söhbət itdə, itsaxlayanda deyil...

**Bağda oyurub fikirlərimlə baş-başa idim. Dərd-sər azdı bəyəm. Digər tərəfdən, indiyədək rastlaşdığım vəfalı, vəfasız o qədər insan olub ki… Vaxt olub mən özüm də dosta, tanışa qarşı vəfasızlıq etmişəm, bəzən kiminsə haqqına girmişəm və indi yadıma düşəndə, o səhvlərimin əzabını çəkirəm.**

İnsan gərək tez-tez özünə hesabat versin, harada nəyi düz, nəyi yersiz elədiyini, başından böyük danışdığını saf-çürük etsin, qiymətləndirsin. Axı, biz Uca Allahın yaratdığı yer üzünün əşrəfi sayılan varlığıq...

Bu düşüncələr məni, sanki, əyləşdiyim məkandan ayırmışdı. Onu da deyim ki, ilk dəfə Bakıya gələndə bu bağda oturub beşmərtəbəli binalara üzüm tənəklərinin bürüdüyü eyvanlara heyranlıqla tamaşa edir, yanımdan keçən adamlara maraqla baxırdım. Mənə elə gəlirdi ki, bu şəhərdə yaşayan insanların hamısı xoşbəxtdi, rahat yaşayır, ürəkləri təmizdi... Axı, onda sadəlövh kənd uşağı idim.

Amma illər ötdükcə bu böyük şəhər mənə də həyatın hər üzünü göstərdi, müxtəlif taleli insanlarla üz-üzə gətirdi. Deyəsən, giriş bir az uzun oldu, axı. Onda keçək mətləbə.

Birdən yuxudan ayılan kimi oldum. Yanımda boylu-buxunlu, cins şalvar geyinmiş cavan oğlan oturmuşdu. Onun yanında isə qəribə bir qara it var idi. İtin tükləri par-par parıldayırdı. Elə bil onu ütüləmişdilər. Əvvəlcə mən itdən qorxdum. Çünki heyvan gözlərini mənə zilləmişdi. Yadıma Konan Doylun “Baskervillərin iti” romanındakı dəhşətli it düşdü.

*Oğlan həyəcanımı hiss edib dedi:*

– Narahat olmayın, dayı, dəyən deyil, tərbiyəlidir. O ilk dəfə gördüyü insanlara belə baxır...

Oğlanın bu sözlərindən sonra itin sifəti bir qədər dəyişdi. Sanki it məndən üzr istəyirdi. Bundan sonra mən də ürəyimdən keçənlərə görə itə üzrxahliq edirmiş kimi ona təbəssümlə baxmağa çalışdım.

Oğlandan soruşdum:

**– Buna nə yedizdirirsən?**

– Öz menyusu var. Ancaq o işə mən baxmıram. Hər şeyi yemir.

**– Belə baxıram ki, sən qazandığını bu itə yedizdirirsən...**

– Deyəsən, məni düz başa düşmədiniz. Mən ancaq onu gəzdirməklə məşğulam, qulluq edən başqa adamdır. Gündə iki dəfə gəzməyə – parka, bulvara, stadiona, ya da şəhərdən kənara dəniz qırağına gəzməyə çıxarıram. Yolumuz uzaq olanda avtomobillə gedirik.

**– Soruşmaq ayıb olmasın, bu işə görə sahibindən nə qədər aylıq alırsan?**

– Pullular bizim kimilərə pul verəndə elə bil canlarını verirlər. Bu itin sahibi mənə 600 manat verir. Başqa birinin itini də növbə ilə gəzdirirəm. O adam lap simicdir, 400 manat verir.

**– Əcəb peşən var. Deməli, itgəzdirənsən. Belə baxanda pis deyil.**

*Oğlan itin başını tumarlaya-tumarlaya dedi:*

– Nəyi pisdir ki? İndi idarələrdə işləyənlərə bu qədər əməkhaqqı vermirlər. Həm də səhər gedib, axşam qayıdırlar. Mən isə iti gəzdirməyə gündə, uzağı, 4–5 saat sərf edirəm.

**– Yəqin, sahibi bu itə ayda 2–3 min manat xərcləyir. Bu, onun nəyinə lazımdır ki?**

– Bilirsiz, hərənin öz marağı var. Varlıların bir qismi müxtəlif heyvan, quş, balıq saxlayırlar. Amma çoxu bahalı, xüsusi cinsdən olan it saxlayır. Bu adam da, it xəstəsidi. Harada gözəl, bahalı it görür, alır.

**– Kimdir o adam, nəçidir?**

– Bağışlayın, onu deyə bilmərəm. Bir də mənim nəyimə lazımdı kimdi, əsas odur ki, pulumu vaxtlı-vaxtında verir.

**– Yaxşı olar ki, o adam itə sərf etdiyi pulları imkansızlara, müalicə üçün ona-buna ağız açanlara verə. Allaha da xoş gedər.**

– Bəlkə də verir, biz bilmirik.

**– Yaxşı, sənin bir sənətin, peşən yoxdur ki, beləsinin itgəzdirəni işləyirsən?**

– Niyə elə deyirsiz, mən halal zəhmətlə dolanıram. Oğurluq eləmirəm, kiminsə malına, dövlətinə göz dikmirəm...

**– Əcəb halal qazanc yeri tapmısan. Get fəhləlik elə, vağzalda yük daşı...**

– Elə danışırsız ki, elə bil, heç nədən xəbəriniz yoxdur. Fəhlə yeri tapmaq elə asandır, bəyəm? Şirkətlərin çoxuna, ticarətə də cavan xanımları götürürlər. Bir də indi çox yerdə fəhləyə ən çoxu 400-500 manat verirlər. Bir ayda aldığın o pulla ailə saxlamaq, adam kimi yaşamaq olar? Əvvəllər hara getmişəm bəhanə ilə başdan eləyiblər, ya da bir ay işlədib, pulumu verməyiblər. Qardaşım universitet bitirib, müəllimdir. Ayda 550 manat alır. Ailəlidir. Ona da mən kömək eləyirəm...

İt yavaşca mırıldadı. Məncə, it həmsöhbətimə deyirdi ki, məni gəzdirməyə çıxarmısan, yoxsa başqaları ilə çənə döyməyə.

Oğlan itin başını tumarladı və sonra ayağa qalxıb xudahafizləşdi.

Həmsöhbətim gedəndən sonra o cavan itgəzdirən, o xoşbəxt it və o itin imkanlı sahibi haqqında düşünməyə başladım. Bu dəfə öz-özümə dedim ki, gör belə itlərə sərf edilən vəsaitlə nə qədər ac-yalavaca çörək vermək, xəstə soydaşımızı həyata qaytarmaq olar. Yox, mən itlərin ac, baxımsız qalmasının da tərəfdarı deyiləm. Ancaq it insandan dəyərli olarsa, axırda insanın da, itin də aqibəti yaxşı olmaz.

İtgəzdirən oğlanla, onun işi ilə bağlı ürəyimdə təəssüf hissi baş qaldırdı. Lakin onu bu işə görə qınaya bilmədim...

**Səməd MƏLİKZADƏ**



Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 201 (30605) 15 sentyabr 2024-cü il, bazar

# Sürət yarışının Bakı fanatları

**Əvvəlki illərdən fərqli olaraq azarkeşlər bu il Formula 1 yarışlarında daha çox fəallıq nümayiş etdiriblər. Fərqli texnoloji təcrübələri sevənlər virtual reallığı əks etdirən F1 zonasında doyunca əylənmək şansı əldə ediblər. Bakı Şəhər Halqası kiçik qonaqları da unutmayıb. Onlar üçün müxtəlif əyləncə növləri, milli rəqslər, retro avtomobillərin sərgisi, müxtəlif foto zonalar və s. təşkil olunub.**

Formula yarışlarının 2-ci günündə Bakı sakinləri və əcnəbi qonaqlarla apardığımız müsahibələri təqdim edirik:

**Paul Cort, Bakı sakini:** - Artıq neçə ildir ki, Bakıda yaşayıram. İngiltərədən bura işləmək üçün gəlmişəm. Ölkəniz gözəl və səliqəlidir. Burada hər günüm maraqlı keçir. İnsanların davranışı, geyim tərzi və mədəni olmaları çox xoşuma gəlir. Ötən il formula yarışlarında iştirak edə bilmədim. Lakin dünən keçirilən yarışlara qatıla bildim. Tamaşaçı kimi hər şeydən çox razı qaldım. Düşünürəm ki, Azərbaycanda təşkil olunan formula yarışları daha maraqlı olur. Yarışçılara gəlincə, britaniyalı idmançı Lando Norrisi dəstəkləyirəm.



**James Saconders, turist:** - Cənubi Afrikadan olsam da, Avstraliyada yaşayıram. Bakıya 6-cı dəfə gəlirəm. Adətən, bura tək səyahət edirəm. Bu dəfə dostlarımı da gətirmişəm. Burada tikilən müasir otellər, dadlı yeməklər və hər yerdə taksi xidmətinin olmasını çox bəyənirəm. Formula yarışlarını həvəslə izləyirəm. Britaniyalı idmançı Toni Brooksu çox bəyənirəm. Müasir yarışçılardan isə "Mersedes" komandasının üzvü Levis Hamiltona azarkeşlik edirəm. Çünki o, əzmi və iradəsi ilə bütün idmançılardan fərqlənir.



**Toğrul Məmmədov, Bakı sakini:** - Keçən ilə nisbətən bu il yarışlarda tamaşaçı sayı daha çoxdur. Bu da ölkəyə kifayət qədər turist axınının olmasından xəbər verir. İnsanların üzündəki təbəssüm və yarışlardakı ab-hava daha çox xoşuma gəlir. Komandalardan isə "Mersedes" i daha çox bəyənirəm. Çox istərdim ki, Levis Hamilton qalib gəlsin.



Qeyd edək ki, Azərbaycan Qran-prisi sentyabrın 15-də başa çatacaq.

# Azərbaycan Qran-Prisinin 2-ci günü də gərgin mübarizə ilə yadda qaldı




**Dünən – Bakının sayca 8-ci dəfə evsahibliyi etdiyi Formula 1 Azərbaycan Qran-Prisinin 2-ci günündə Formula 1 üzrə 3-cü sərbəst yürüş və sıralama turu, Formula 2 üzrə sprint yarışları keçirildi.**




## Corc Rassel 3-cü sərbəst yürüşdə qalib gəldi

Cümə günündən fərqli olaraq yarışın 2-ci günündə pilotlar buludlu və yüngül yağışlı hava ilə qarşılaşıblar. Asfaltın qurumasını gözləyən sürücülər, sessiyanın başlanğıcında Esteban Okonun maşınının güc problemi səbəbindən dayandırılması ilə üzləşiblər. Sessiya bərpa edildikdən sonra yağan yüngül yağış və "Haas" sürücüsü Oliver Bermanın baryerlərə çırpılması səbəbindən yürüş yenidən dayandırılıb. Bir neçə dəqiqədən sonra sürücülər qırmızı təkərlərlə trasa qayıtsalar da, fasilələr səbəbindən bərk (ağ) təkərlərlə uzun dövrələr etmək mümkün olmayıb.



3-cü sərbəst yürüşün sonunda Corc Rassel 1:42.514 dəqiqə ilə ən yaxşı nəticəni əldə edib. "Ferrari"nin monakolu sürücüsü Şarl Lekler 2-ci, "MakLaren"in britaniyalı pilotu Lando Norris 3-cü yerləri tutublar.

Xatırladaq ki, cümə günü ilk sərbəst yürüşdə Maks Ferstappen, daha sonra isə Şarl Lekler ən sürətli olmuşdular. Üç sərbəst yürüşdə fərqli komandalardan liderlərin olması sıralanma turunun daha maraqlı keçəcəyinə işarə idi.

## Paraqvaylı Yosua Durksen Formula 2 sprint yarışında 1-ci oldu

Formula 2-nin sprint yarışında isə 11 komanda iştirak edib. Yarış qəzasız ötməyib. "Rodin Motorsport" komandasının pilotu Rimoto Miyatanın idarə etdiyi boliddə yanğın olub. Hadisə avtomobilin səddə çırpılmasından sonra baş verib. Yaponiyalı sürücü mübarizəni dayandırıb.

Yarışın yekun nəticəsinə görə, "PHM AIX Racing" komandasının paraqvaylı pilotu Yosua Durksen qalib olub. Sonrakı 2 pillədə DAMS komandasının amerikalı sürücüsü Cek Krauford və "Prema"da çıxış edən italiyalı Qabriel Mini qərarlaşıblar.

Sonra sprint yarışının qalibi mükafatlandırılıb. Birinci yeri tutan Coşua Durksenə kuboku Gənclər və İdman Nazirliyinin şöbə müdiri Elnur Məmmədov təqdim edib.

Yarışdan sonra Yozua Dürksen mətbuat konfransında Bakıdakı yarışı unutmayacağını deyib. O qeyd edib ki, burada əldə etdiyi uğur karyerasına müsbət təsir göstərəcək.

Yaxşı mövsüm keçirdiyini vurğulayan paraqvaylı sürücü onu da deyib ki, bu nəticədən sonra Formula 1-də çıxış etmək üçün şansları artırıb:

– Formula 2-də debüt ilimdir. Buna baxmayaraq, hazırda çox yaxşı formadayam. Düşünürəm ki, bu, kifayət deyil, təkmilləşmək lazımdır.

## Şarl Lekler 4-cü dəfə Bakıda sıralama turunu ilk başa vurdu

Formula 1 Azərbaycan Qran-Prisində sıralama turu da maraqlı mübarizə şəraitində keçib. "Ferrari" pilotu Şarl Lekler ardıcıl 4-cü dəfə Bakıda keçirilən Azərbaycan Qran-prisində sıralama turunu birinci pillədə başa vurub. "McLaren"in avstraliyalı sürücüsü Oskar Piastri 2-ci, "Ferrari"nin digər üzvü ispaniyalı Karlos Sayns 3-cü yeri tutub.

Qeyd edək ki, Formula 1 yarışı sentyabrın 15-də başa çatacaq.

# Azərbaycan idman dövləti imicini durmadan yüksəldir

**Bakıda İtaliyanın Formula 1 yarışlarında iştirak tarixinə həsr olunan tədbir keçirilib.**



Toplantıda İtaliyanın dünyanın ən nüfuzlu avtoidman yarışındakı təcrübəsindən və qazandığı uğurlardan danışılıb. Azərbaycan Avtomobil Federasiyasının vitse-prezidenti Fərid Məmmədov Formula 1-in qlobal idman yarışı olduğunu və İtaliyanın da burada mühüm rollardan birini oynadığını bildirib. F.Məmmədov Formula 1-in prezidenti və icraçı direktoru Stefano Domenikalini yenidən Bakıda görməkdən məmnunluğunu dilə gətirib.

Formula 1 rəhbəri Azərbaycanla əlaqələrin yüksək səviyyədə olduğunu bildirib. O, yenidən Azərbaycanda olmaqdan məmnunluğunu vurğulayıb:

– Azərbaycan xalqının bizə, F1 pilotlarına sevgisini hiss edirik. Azərbaycan dövləti öz imicini dünyaya yüksək səviyyədə çatdırır. Ümumilikdə, Bakı şəhəri Formula 1 tipli yarışların keçirilməsi üçün əlverişli bir məkandır. Daim gərgin mübarizələrə şahid olan şəhər halqası son vaxtların ən yaddaqalan və həyəcanlı yarışlarını təşkil edib.

# Hollivud ulduzunun Formula–1 auditoriyasında konserti

**Avtoidman həvəskarları və musiqisevərlər Formula 1 Qatar Airways Azərbaycan Qran-Prisi 2024 çərçivəsində "Kristal" zalında keçirilən möhtəşəm gecənin şahidi olublar.**

Hollivudun məşhur siması, aktyor və musiqiçi Uill Smit səhnəyə çıxaraq özünəməxsus enerjisi və performansı ilə fanatları coşdurub. Onun səsləndirdiyi hitlər, xüsusən də 90-cı illərin musiqisevərlərinə nostalji hisslər yaşadıb. Ulduzun canlı çıxışı ilə yanaşı, müasir səhnə effektlərinin yaratdığı ab-hava gecəyə xüsusi rəng qatıb.

Əyləncə Uill Smitin çıxışı ilə yekunlaşmayıb. Gecənin ikinci hissəsində elektron musiqi dünyasının ulduzu, Qremmi mükafatlı DJ Black Coffee səhnəyə çıxaraq öz fərqli üslubu ilə azarkeşləri heyran edib. Onun təqdim etdiyi enerji dolu musiqilər tamaşaçılara ritmlərlə dolu unudulmaz gecə bəxş edib.

*Səhifəni hazırladılar:*
*Leyla QURBANOVA,*
*Fidan SALMANOVA,*
*Elşən AĞALAROV (foto)*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3863
SİFARİŞ 2009
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00